AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏHƏRSALMA VƏ TİKİNTİYƏ DAİR NORMATİV SƏNƏDLƏR SİSTEMİ

# AzDTN 2.6-3

# SƏNAYE MÜƏSSİSƏLƏRİNİN BAŞ PLANLARI. LAYİHƏLƏNDİRMƏ NORMALARI

RƏSMİ NƏŞR

AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ

BAKI-2024

AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏHƏRSALMA VƏ TİKİNTİYƏ DAİR NORMATİV SƏNƏDLƏR SİSTEMİ

# AzDTN 2.6-3

# SƏNAYE MÜƏSSİSƏLƏRİNİN BAŞ PLANLARI. LAYİHƏLƏNDİRMƏ NORMALARI

RƏSMİ NƏŞR

AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ

BAKI-2024

**AzDTN 2.6-3 “Sənaye müəssisələrinin baş planları. Layihələndirmə normaları”** (Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi-Bakı, 2024-cü il, səh. 37)

| | |
|---|---|
| ***İşləyib:*** | *Azərbaycan İnşaat və Memarlıq Elmi -Tədqiqat İnstitutu - mövzu rəhbəri: t.e.d., prof. X.Q.Seyfullayev, baş mütəxəssis Ə.E.Tağızadə, mütəxəssis S.H.Hüseynova* |
| ***Təsdiqə hazırlayıb və təqdim edib:*** | *Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi* |
| ***Təsdiq edilib:*** | *Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 2024-cü il 27 noyabr tarixli 3-35/3-2-7/2024 nömrəli qərarı ilə* |
| ***Qüvvəya minib:*** | *2024-cü il 10 dekabr tarixdən* |
| ***Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi:*** | *15202411275327* |

***İlk dəfə qəbul edilir***

Bu texniki normativ hüquqi akt qüvvəyə mindiyi tarixdən СНиП II-89-80* “Генеральные планы промышленных предприятий” normativ sənədin Azərbaycan Respublikası ərazisində hüquqi qüvvəsi dayandırılır.

@ AzDŞAK-TN/Q № 0046-2024

**AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏHƏRSALMA VƏ TİKİNTİYƏ DAİR NORMATİV SƏNƏDLƏR SİSTEMİ**

# SƏNAYE MÜƏSSİSƏLƏRİNİN BAŞ PLANLARI. LAYİHƏLƏNDİRMƏ NORMALARI

## 1. Tətbiq sahəsi

Bu layihələndirmə normaları (bundan sonra - Normalar) inşa edilən və ya yenidən qurulan istehsalat obyektlərinin, o cümlədən ayrı-ayrı torpaq sahələrində, istehsalat zonalarında, texnoparklarda, sənaye parklarında, məhəllə və klasterlərində yerləşdirilən müxtəlif sahələr üzrə sənaye müəssisələrinin, mühəndis təminatı, nəqliyyat, rabitə, anbar və kommunal obyektlərinin (bundan sonra - obyektlər) baş planlarının işlənib hazırlanmasına şamil edilir.

## 2. Normativ istinadlar

Normalarda aşağıdakı normativ sənədlərə istinad edilib:

Azərbaycan Respublikasının Su Məcəlləsi;

Azərbaycan Respublikasının Torpaq Məcəlləsi;

“Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanunu;

“Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu;

“Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanunu;

“Texniki təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanunu;

“Tullantılar haqqında” Azərbaycan Respublikasının Qanunu;

“Heyvanlar aləmi haqqında” Azərbaycan Respublikasının Qanunu;

“Atmosfer havasının mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanunu;

“Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanunu;

“Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 08.10.2014-cü il tarixli 288 nömrəli Fərmanı;

“Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları” (Azərbaycan Respublikası Prezidentinin 08.07.2008-ci il tarixli 796 nömrəli Fərmanı ilə təsdiq edilmişdir);

“Sənaye parkları haqqında Nümunəvi Əsasnamə” (Azərbaycan Respublikası Prezidentinin 24.04.2013-cü il tarixli 865 nömrəli Fərmanı ilə təsdiq edilmişdir);

“Elektrik qurğularının quraşdırılması Qaydası” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11.02.2020-ci il tarixli 40 nömrəli qərarı ilə təsdiq edilmişdir);

“Ekzogen geoloji proseslərə məruz qalmış torpaqlarda mühəndis-texniki və kənd təsərrüfatı işlərinin aparılmasına icazə verilməsi Qaydası” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 01.05.2000-ci il tarixli 79 nömrəli qərarı ilə təsdiq edilmişdir);

“İnfrastruktur obyektlərinin və yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin tələbatının nəzərə alınmasına, istismarda olan infrastruktur obyektlərinin və yaşayış binalarının əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına nəzarət Qaydası” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11.09.2019-cu il tarixli 405 nömrəli qərarı ilə təsdiq edilmişdir);

“Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl Qaydalar” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.02.2014-cü il tarixli 51 nömrəli qərarı ilə təsdiq edilmişdir);

“Yaşayış məntəqələrinin yaşıllıqla təmin edilməsi Normaları” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.01.2018-ci il tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmişdir);

“Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.04.2005-ci il tarixli 74 nömrəli qərarı ilə təsdiq edilmişdir);

“Təhlükəli tullantıların saxlanılması Qaydası” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.06.2016-cı il tarixli 228 nömrəli qərarı ilə təsdiq edilmişdir);

“Telekommunikasiya şəbəkələrini, vasitə və qurğularını mühafizə Qaydaları” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.12.2005-ci il tarixli 227 nömrəli qərarı ilə təsdiq edilmişdir);

“Su mühafizə zonalarının, onların sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və istifadəsinin müəyyən edilməsi Qaydaları” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.03.2000-ci il tarixli 56 nömrəli qərarı ilə təsdiq edilmişdir);

“Bina və qurğuların layihələndirilməsində əlillər üçün zəruri olan həyat və fəaliyyət şəraitinin yaradılması üzrə Müvəqqəti Təlimat” (Azərdövləttikintikomun 14.03.2002-ci il tarixli 42 nömrəli əmri ilə təsdiq edilmişdir);

“Məişətdə, nəqliyyatda və ictimai yerlərdə əlillər üçün münasib həyat və fəaliyyət şəraitinin yaradılması məqsədilə əlillərin reabilitasiyası üzrə texniki vasitələrdən və memarlıq-planlaşdırma həllərindən istifadə olunması üzrə Metodiki göstərişlər” (Azərdövləttikintikomun 25.07.2001-ci il tarixli 92 nömrəli əmri ilə təsdiq edilmişdir);

AzDTN 2.3-1* Seysmik rayonlarda tikinti;

AzDTN 2.3-2 Təhlükəli təbii təsirlərin geofizikası;

AzDTN 2.3-3 Ərazilərin, bina və qurğuların sürüşmə və uçqunlardan mühəndis mühafizəsi. Əsas müddəalar;

AzDTN 2.3-4 Ərazilərin subasmadan və daşqından mühəndis mühafizəsi. Layihələndirmə normaları;

AzDTN 2.6-1* Dövlət Şəhərsalma Norma və Qaydaları. Şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması;

AzDTN 2.7-1 Avtomobil dayanacaqları;

AzDTN 2.11-1 Su təchizatı. Xarici şəbəkə və qurğular;

AzDTN 2.11-2 Kanalizasiya. Xarici şəbəkə və qurğular;

AzDTN 2.12-3 İstilik şəbəkələri. Layihələndirmə normaları;

AzDTN 2.13-1 Qaz təchizatı. Layihələndirmə normaları;

DTN 2.02-01-97 Bina və qurğuların yanğın təhlükəsizliyi;

DTN 2.04-03-2005 Səsdən mühafizə;

DTN 3.02-01-2002 İstehsalat binaları;

DTN 3.03-01-95 Rels izi 1520 mm olan dəmir yolları;

DTN 3.03-03-95 Aerodromlar;

DTN 3.04-01-05 Hidrotexniki qurğular. Əsas müddəalar;

TNvəQ 2.01.28-85 Zəhərli sənaye tullantılarının zərərsizləşdirilmə və basdırılma poliqonları. Layihələndirmə üzrə əsas müddəalar;

TNvəQ 2.05.02-85* Avtomobil yolları;

TNvəQ 2.05.07-91* Sənaye nəqliyyatı;

TNvəQ 2.09.04-87* İnzibati və məişət binaları;

TNvəQ II-11-77* Mülki müdafiənin mühafizə qurğuları;

TNvəQ II-106-79 Neft və neft məhsulları anbarları. Yanğın təhlükəsizlik tələbləri;

TNvəQ III-10-75 Ərazinin abadlaşdırılması;

SN 245-71 Sənaye müəssisələrinin layihələndirilməsinin sanitariya normaları;

DÜİST 9238-83 Rels izi 1520 (1524) mm olan dəmir yolların hərəkət tərkibinin və tikililərin yaxınlıq əndazəsi;

DÜİST 9720-76 Rels izi 750 mm olan dəmir yolların hərəkət tərkibinin və tikililərin yaxınlıq əndazəsi.

***Qeyd.*** *Mətn üzrə göstərilən işarələnmələr aşağıdakı kimi oxunur:*

*AzDTN - Azərbaycan Dövlət Tikinti Normaları;*

*AZT - Azərbaycan Respublikasının Dövlət Təsnifatı;*

*TNvəQ - Tikinti Norma və Qaydaları;*

*DTN - Dövlətlərarası Tikinti Normaları;*

*SN - Sanitariya Normaları;*

*DÜİST - Dövlət Ümumittifaq Standartı (Dövlətlərarası Standart).*

## 3. Əsas anlayışlar

Normalarda aşağıdakı əsas anlayışlardan istifadə olunub:

**əlilliyi olan şəxslər –** müxtəlif maneələrlə qarşılaşdığı zaman digər şəxslərlə barabər səviyyədə cəmiyyət həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan şəxs;

**funksional-texnoloji zonalaşdırma –** texnoloji əlaqələri əsasında vahid funksional təyinatlı bina və qurğuların diferensial şəkildə yerləşdirilməsi təmin olunmaqla istehsalat obyektinin torpaq sahəsinin planlaşdırılması;

**istehsalat obyekti –** sənaye və kənd təsərrüfat təyinatlı, o cümlədən anbarlar, mühəndis və nəqliyyat (dəmir yolu, avtomobil, çay, dəniz, hava və borukəməri nəqliyyatı) infrastrukturu obyektləri, rabitə və kommunal obyektlər;

**istehsalat obyektlərinin əraziləri –** üzərində tikilməkdə olan və ya mövcud bina və qurğular olmaqla istehsalat fəaliyyətinin həyata keçirilməsi üçün ayrılmış torpaq sahəsi;

**sənaye klasteri –** ölkənin bir və ya bir neçə əlaqəli regionu ərazisində yerləşən, ərazi yaxınlığı və funksional asılılıq münasibətləri ilə bağlı olan sənaye sahəsində fəaliyyət göstərən subyektlərin məcmusudur;

**sənaye məhəlləsi –** sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik olan, mikro, kiçik və orta sahibkarlar tərəfindən məhsul istehsalı və xidmət göstərilməsi üçün istifadə edilən ərazi;

**sənaye müəssisələri –** sənaye məhsullarının istehsalı üçün müəyyən edilmiş torpaq sahələrinin hüdudlarında yerləşən istehsalat obyektlərinin kompleksi;

**sənaye parkı –** sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabət qabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi, habelə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda malların satışı məqsədləri üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazi.

## 4. Ümumi müddəalar

**4.1.** İstehsalat obyektlərin yerləşdirilməsi, funksional və memarlıq planlaşdırılması ilə yaşayış məntəqələrinin qarşılıqlı əlaqələndirilməsi AzDTN 2.6-1*-in tələbləri nəzərə alınmaqla həyata keçirilməlidir. Layihələndirilən obyektlər köməkçi-yardımçı xidmət sahələrinin, mühəndis və nəqliyyat təminatı sistemlərinin, mədəni-məişət xidmətlərinin maksimum kooperasiyasını təmin etməklə AzDTN 2.6-1*-ə müvafiq yığcam yerləşdirilməlidir.

**4.2.** İstehsat obyektlərinin torpaq sahələri ekoloji, sosial, iqtisadi inkişaf proqramları həyata keçirilən yaşayış məntəqələrinin baş planlarına müvafiq yerləşdirilməlidir.

Sənaye parkının yaradılması üçün ayrılan torpaq sahəsi və orada şəhərsalma və tikinti fəaliyyəti “Sənaye parkları haqqında Nümunəvi Əsasnamə”yə müvafiq müəyyənləşdirilməlidir.

**4.3.** İstehsal obyektləri qeyri-kənd təsərrüfatı təyinatlı və ya kənd təsərrüfatı üçün yararsız torpaqlarda yerləşdirilməlidir.

İstehsal obyektləri üçün bu cür torpaqlar olmadıqda torpaq sahələri Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə uyğun olaraq seçilməlidir.

**4.4.** Faydalı qazıntı yatağı olan ərazilərdə obyektlərin yerləşdirilməsinə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi ilə razılaşdırılmaqla, geniş yayılmış faydalı qazıntılar olan meydançalarda qanunvericilikdə müəyyən olunmuş qaydada yol verilir.

**4.5.** Obyektlərin yerləşdirilməsinə aşağıdakı ərazilərdə yol verilmir:

a) AzDTN 2.11-1-ə müvafiq su təchizatının yerüstü və yeraltı mənbələrinin sanitar-mühafizə zonalarının birinci qurşaqlarında;

b) layihələndirilən obyektlər kurortun təbii müalicə vasitələrinin istismarı ilə bilavasitə əlaqəli olmadıqda AzDTN 2.6-1* tələblərinə və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən xüsusi mühafizə olunan təbiət ərazilərinin torpaqlarında;

c) şəhərlərin yaşıllıq zonalarında;

d) faydalı qazıntılar yerləşən sahələrdə yaşayış məntəqələrinin, sənaye komplekslərinin və digər təsərrüfat obyektlərinin layihələndirilməsi və tikinti işlərinin aparılması, eləcə də həmin sahələrdə yeraltı qurğuların yerləşdirilməsi faydalı qazıntıların çıxarılmasının mümkünlüyü və tikinti işlərinin iqtisadi cəhətdən məqsədəuyğunluğu, habelə dağ-mədən işlərinin təhlükəsiz aparılması və yerli şəraiti nəzərə alınmaqla, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi ilə razılaşdırılmalıdır.

Tikinti işləri aparılacaq sahədə, yerin təkində faydalı qazıntılar olmadığı halda yuxarıda göstərilən obyektlərin inşası Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi ilə razılaşdırılmalıdır;

e) inkişaf edən təhlükəli geoloji və mühəndis-geoloji proseslər, sürüşmələr olan, dağ-mədən işlərinin, sel axınlarının və qar uçqunlarının təsirindən yer səthinin çökdüyü və ya dağıldığı (uçqun) sahələrdə.

***Qeyd:***

*1. İnkişaf edən təhlükəli geoloji və mühəndis-geoloji proseslərin, sürüşmələrin, dağ-mədən işlərinin, sel axınlarının və qar uçqunlarının təsirindən yer səthinin çökdüyü və ya dağıldığı (uçqun) sahələrdə AzDTN 2.3-3-ün və AzDTN 2.3-2-nin tələblərinə müvafiq tədbirlər təmin olunmaqla obyektlərin yerləşdirilməsinə yol verilir.*

*2. Sürüşməyə məruz qalmış və aktivlik dərəcəsindən asılı olmayaraq sürüşmə prosesi gedən torpaqlarda relyefin mailliyindən asılı olaraq mühəndis-texniki və kənd təsərrüfatı işlərinin aparılmasına "Ekzogen geoloji proseslərə məruz qalmış torpaqlarda mühəndis-texniki və kənd təsərrüfatı işlərinin aparılmasına icazə verilməsi Qaydası"na müvafiq yol verilir.*

f) dövlət sanitariya nəzarəti orqanları tərəfindən müəyyən edilmiş müddət bitənə qədər üzvi və radioaktiv tullantılarla çirkləndirilmiş sahələrdə;

g) bəndlərin və ya dambaların dağılması nəticəsində fəlakətli subasmalar mümkün olan zonalarda.

***Qeyd.*** *Fəlakətli subasma zonası - dərinliyi 1,5 m və daha çox olan, bina və qurğuların dağılmasına, insanların ölümünə, obyektin avadanlıqlarının sıradan çıxmasına gətirən subasma ərazisi.*

**4.6.** Texnoloji dəmir yolları, boru kəmərləri və digər kommunikasiyalar istisna olunmaqla, istehsalat obyektlərinin torpaq sahələri dəmir yolları və yaşayış məntəqələrinin ümumi istifadə olunan avtomobil yolları ilə bölünməməlidir.

**4.7.** İstehsal obyektləri AzDTN 2.3-1*-in tələbləri nəzərə alınmaqla yerləşdirilməlidir.

**4.8.** Atmosfer havasının vəziyyətinə zərərli təsir edən obyektlər yerləşdirildikdə "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" və "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarının tələbləri təmin olunmalıdır.

**4.9.** Heyvanların yaşama və çoxalma şəraitlərinə təsiri olan obyektlər yerləşdirildikdə "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikasının Qanununun tələbləri təmin olunmalıdır.

**4.10.** Atmosfer havasını çirkləndirən, həmçinin yüksək yanğın təhlükəsi olan istehsalat obyektləri yerləşdirilərkən yaşayış zonasına nəzərən hakim küləklərin istiqaməti nəzərə alınmalıdır.

Xüsusilə atmosfer havasının təmizliyini tələb edən istehsal obyektləri, o cümlədən sənaye parklarında, sənaye klasterlərində yerləşdirilən obyektlər, atmosfer havasının çirkləndirmə mənbəyi olan qonşu müəssisələr tərəfdən külək döyən istiqamətdə yerləşdirilməməlidir.

İstehsal obyektləri ilə yaşayış zonası arasında sanitariya-mühafizə zonalarının layihələndirilməsinə tələblər AzDTN 2.6-1* və SN 245 ilə tənzimlənir.

**4.11.** Sanitariya-mühafizə zonasının eni 500 m və daha çox olan sənaye parklarının və ərazi sənaye klasterlərinin tərkibinə, yaşayış zonasının sərhədi yaxınlığında və ya hüdudlarında yerləşdirilə bilən istehsalat obyektləri daxil edilməməlidir.

"Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl Qaydalar"a uyğun olaraq sanitariya-mühafizə zonaları müxtəlif olan sənaye müəssisələrinin (xüsusilə qida və yüngül sənaye) eyni ərazidə yerləşdirilməsinə yol verilmir.

**4.12.** Səs səviyyəsi 50 dB və daha çox olan xarici səs-küy mənbəli istehsalat obyektləri yaşayış və ictimai binalara nəzərən DTN 2.04-03-ə və "Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları"na müvafiq yerləşdirilməli, həmçinin səs-küydən mühafizə tədbirləri nəzərdə tutulmalıdır.

**4.13.** Suyun vəziyyətinə təsir edən istehsalat obyektləri yerləşdirilərkən "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun və Azərbaycan Respublikasının Su Məcəlləsinin tələblərinə əməl olunmalıdır.

**4.14.** Su hövzələrinin sahilyanı zonalarında obyektlərin yerləşdirilməsinə "Su mühafizə zonalarının, onların sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və istifadəsinin müəyyən edilməsi Qaydaları"nın tələblərinə uyğun, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə razılaşdırıldıqdan sonra yol verilir.

**4.15.** Çayların və digər su hövzələrinin sahillərində istehsalat obyektləri yerləşdirilərkən su axını səviyyəsinin qalxması və mailliyi, eləcə də DTN 3.04-01-ə müvafiq təyin edilən daşqınlara səbəb olan dalğanın hesablama hündürlüyü nəzərə alınmaqla ərazinin planlaşdırma səviyyəsi, su axınının ən yüksək hesablama səviyyəsindən 0,5 m-dən az olmayaraq qəbul olunmalıdır.

Hesablama horizontu kimi, müdafiə təyinatli obyektlər üçün 100 ildə, digər obyektlər üçün 50 ildə, istismar müddəti 10 ilə qədər obyektlər üçün 10 ildə bir dəfə onu aşma ehtimalı ilə suyun ən yüksək səviyyəsi qəbul olunmalıdır.

***Qeyd:***

*1. Suyun səviyyəsi tez-tez artan torpaq sahələrində obyektlərin yerləşdirilməsinə subasmadan mühafizə üzrə zəruri qurğuların tikilmə şərti ilə yol verilir.*

*2. Bu bəndin tələbləri istismar şərtlərinə əsasən qısamüddətli subasmalarına yol verilən obyektlərə, onların bina və qurğularına şamil edilmir.*

**4.16.** Limanların, gəmilərin dayanacaq bazalarının (qurğularının), çimərliklərin, yanalma körpülərinin, su keçidlərinin və ya digər liman qurğularının quraşdırılmasını tələb edən obyektlər çay axını üzrə yaşayış zonasından aşağıda yerləşdirilməlidir.

**4.17.** Hava gəmilərinin uçuşunun təhlükəsizliyinə təhlükə yaradan və ya aerodromların radiotexniki vasitələrin normal işi üçün maneə yaradan radiotexniki və digər sahələrin bina, qurğu və obyektlərinin yerləşdirilməsi DTN 3.03-03-ə müvafiq qəbul edilməlidir.

**4.18.** Radiostansiyanın, xüsusi təyinatlı qurğuların yerləşdiyi rayonlarda obyektlər yerləşdirilərkən, layihələndirilən obyektlərlə həmin qurğular arasında olan məsafə TNvəQ II-11-in tələblərinə müvafiq qəbul edilməlidir.

**4.19.** “Texniki təhlükəsizlik haqqında” Azərbaycan Respublikası Qanunun 8-ci maddəsinə əsasən, təhlükə potensiallı obyektin tikintisi, genişləndirilməsi, yenidən qurulması, texniki cəhətdən yeniləşdirilməsi, konservasiyası və ləğv edilməsi prosesində layihə sənədlərindən kənara çıxma hallarına yol verilmir. Layihə sənədlərinə edilən dəyişikliklər Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi ilə razılaşdırılmalıdır.

**4.20.** Müəssisələrin şlaktoplayıcı, tullantı yerlərinin (qalaqların) quraşdırılmasına bu tullantıların utilizasiyasının (zərərsizləşdirilməsi) mümkün olmadığı halda “Tullantılar haqqında” Azərbaycan Respublikasının Qanunu nəzərə alınmaqla yol verilir, bu zaman TNvəQ 2.01.28-ə əsasən sənaye parkları və sənaye klasterləri üçün mərkəzləşdirilmiş (qrup halında) tullantı məntəqələri nəzərdə tutulmalıdır. Onlar üçün sahələr sanitariya-epidemioloji normalara əməl edilməklə AzDTN 2.11-1 üzrə yeraltı su mənbələrinin sanitariya-mühafizə zonalarının ikinci qurşağından və obyektlərin hüdudlarından kənarda yerləşdirilməlidir.

Tərkibində kömür, şist, arsen, qurğuşun, civə və digər yanar və toksiki maddələr olan tullantı yerləri (qalaqları) “Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl Qaydalar”a uyğun yaşayış və ictimai bina və qurğularından sanitar-mühafizə zonası ilə ayrılmalıdır. Müəssisələrin, istehsalat obyektlərinin sanitar-mühafizə zonalarının ölçüləri SN 245-in tələbləri nəzərə alınmaqla müəyyən edilir. İstehsalat ərazisinin layihələndirilməsi üzrə tələblər AzDTN 2.6-1*-ə müvafiq yerinə yetirilməlidir.

Kömür və şist mədənlərinin tullantı yerləri (qalaqları) ilə istehsalat və ya anbar binaları arasında məsafələr tullantı yerlərinin sürüşmə yerdəyişməsinin təhlükəli zona parametrlərindən az olmamalı və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin

Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi ilə razılaşdırılmalıdır.

**4.21.** İstehsalat obyektlərində əlilliyi olan şəxslərin əməyi nəzərdə tutulan hallarda "Bina və qurğuların layihələndirilməsində əlillər üçün zəruri olan həyat və fəaliyyət şəraitinin yaradılması üzrə Müvəqqəti Təlimat"-ın, "Məişətdə, nəqliyyatda və ictimai yerlərdə əlillər üçün münasib həyat və fəaliyyət şəraitinin yaradılması məqsədilə əlillərin reabilitasiyası üzrə texniki vasitələrdən və memarlıq-planlaşdırma həllərindən istifadə olunması üzrə Metodiki göstərişlər"in tələbləri və layihələndirmə mərhələsində "İnfrastruktur obyektlərinin və yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin tələbatının nəzərə alınmasına, istismarda olan infrastruktur obyektlərinin və yaşayış binalarının əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına nəzarət Qaydası"nın tələbləri təmin olunmalıdır.

**4.22.** Sənaye müəssisələrinin baş planları layihələndirilərkən, ətraf mühitin ekoloji tarazlığının mühafizəsi məqsədi ilə ekoloji təhlükəsizliyin təmin edilməsi, təbii ekoloji sistemlərə təsərrüfat və başqa fəaliyyətin zərərli təsirinin qarşısının alınması, bioloji müxtəlifliyin qorunub saxlanılması və təbabətdən istifadənin səmərəli təşkili "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu nəzərə alınmaqla həyata keçirilməlidir.

## 5. Obyektlərin torpaq sahəsinin planlaşdırması

### Planlaşdırma, bina və qurğuların yerləşdirilməsi

**5.1.** İstehsalat obyektlərinin, o cümlədən sənaye parklarında və sənaye klasterlərində yerləşən obyektlərin torpaq sahələrinin planlaşdırması, obyektlərdə istehsalat prosesini və əmək fəaliyyəti üçün daha əlverişli şəraiti, ərazinin, enerji resurslarının səmərəli və qənaətli istifadəsini, mülki müdafiəni və ekoloji təhlükəsizliyi təmin etməlidir.

Torpaq sahələrinin tikinti sıxlığı əmsalları "Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl Qaydalar"ının tələbləri nəzərə alınmaqla təyin olunur və istehsalat obyektlərinin torpaq sahələrinin tikinti əmsalının hesablanma qaydası bu Normaların əlavə 1-də verilmişdir.

Yenidən qurulan istehsalat obyektlərində, o cümlədən sənaye parklarında və sənaye klasterlərində yerləşən tikililərin torpaq sahələrinin baş planlarında mühəndis və nəqliyyat kommunikasiyasının yerləşməsi, funksional və planlaşdırma zonalarının nizamlanması nəzərdə tutulmalıdır.

**5.2.** İstehsalat obyektlərinin bina və qurğularının, o cümlədən mühəndis kommunikasiyalarının arasındakı məsafələr bu Normaların cədvəl 7.2-nin və AzDTN 2.6-1*-in tələblərinə müvafiq olmalıdır.

Obyektlər sənaye parklarının və ərazi sənaye klasterlərinin tərkibində yerləşdirilərkən müəssisələrin və digər obyektlərin meydançalarının ümumi sahəsinin sənaye parklarının və ərazi sənaye klasterlərinin ərazisinin sahəsinə olan nisbəti AzDTN 2.6-1*-in tələbləri nəzərə alınmaqla 0,6-dan az olmayaraq qəbul olunmalıdır.

Göstərilən obyektlərin yenidən qurulmasında sanitariya-epidemioloji, həmçinin yanğın təhlükəsizliyi norma və qaydalarına riayət edilməklə, bu nisbətin 15%-dən çox olmayaraq azaldılmasına yol verilir.

**5.3.** İstehsalat obyektlərinin, o cümlədən sənaye parklarında və sənaye klasterlərində yerləşən obyektlərin torpaq sahələrinin planlaşdırılmasında aşağıdakılar nəzərdə tutulmalıdır:

a) texnoloji əlaqələri, sanitariya-gigiyena və yanğın əleyhinə tələbləri, yük dövriyyəsi və nəqliyyatın növü nəzərə alınmaqla sənaye məhəllələrinin torpaq sahələrinin funksional-texnoloji zonalaşdırılması;

b) obyektlərin öz aralarında, həmçinin obyektlər ilə yaşayış və digər zonalar arasında, səmərəli istehsalat, nəqliyyat və mühəndis əlaqələri;

c) yaşayış məntəqələrinin yaşayış və digər ərazi zonalarına xidmət edən, analoji istehsalat və təsərrüfatlar daxil olmaqla, əsas və köməkçi istehsalat və təsərrüfat sahələrinin kooperasiyalaşdırılması;

d) obyektlərin genişləndirilməsi üçün zəruri və əsaslandırılmış ehtiyatlar daxil edilməklə yerüstü və yeraltı məkanlarda ərazinin intensiv istifadəsi;

e) işçilərə vahid xidmət şəbəkəsinin təşkili;

f) tikinti işlərinin aparılmasının və istismara tam və ya növbəli verilməsinin həyata keçirilməsinin mümkünlüyü;

g) ərazinin abadlaşdırılması;

h) müvafiq əraziyə və qonşu tikililərə uyğun memarlıq üslubuna riayət edilməsinin təmin olunması;

i) bitişik ərazilərin eroziyadan, bataqlaşmadan, şoranlaşmadan və yeraltı suların və açıq su hövzələrinin müəssisələrin çirklənmiş sularından və tullantılarından mühafizəsi;

j) torpağın üst qatının pozulması işlərinin aparılması zamanı onun üst münbit qatının (əkin və əkin altı qatı) kənara götürülməsi və həmin torpaq kütləsinin torpağın təkrar rekultivasiya olunması və eləcə də ərazidə mövcud olan qeyri-münbit torpaqların əkin qatının yaxşılaşdırılmasında istifadə edilməsi.

***Qeyd.*** *Sənaye məhəllələrinin yaradılması ilə bağlı tədbirlərin həyata keçirilməsi "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı nəzərə alınmaqla yerinə yetirilməlidir.*

**5.4.** Obyektlərin, o cümlədən onların sənaye parklarında və ərazi sənaye klasterlərində yerləşdirilən obyektlərin torpaq sahələrinin planlaşdırılmasında tikinti rayonunun aşağıdakı təbiət xüsusiyyətləri nəzərə alınmalıdır:

a) havanın temperaturu, həmçinin hakim küləklərin istiqaməti;

b) tikinti nəzərdə tutulan sahədə külək tutmayan tərəfdə təpələrin və ya relyefin yüksəkliklərinin olması səbəbindən qar yığınlarının olması.

**5.5.** İstehsalat obyektləri ərazilərində bina və qurğular digər obyektlərin işçilərinə, texnoloji proseslərinə, xammal, avadanlıq və məhsullarına, həmçinin yaşayış məntəqəsi əhalisinin sağlamlığına və məişət həyat şəraitinə zərərli təsirlərin maksimal aradan qaldırılması nəzərə alınmaqla yerləşdirilməlidir.

**5.6.** İnzibati və məişət binaları, ərazidə SN 245 üzrə I və II sinif sanitariya təhlükəliliyi olan zərərli maddələr ilə atmosfer havasını çirkləndirən mənbələr olduqda, bina və qurğulardan yaranan havanın dövretmə (aerodinamik kölgələr) zonasından kənarda yerləşdirilməlidir.

**5.7.** Funksional təyinatına görə istehsat obyektlərinin ərazisini aşağıdakı funksional-planlaşdırma zonalara ayırmaq lazımdır:

a) giriş;

b) tədqiqat təyinatlı və təcrübi-istehsalat zonaları daxil olunmaqla istehsalat;

c) yardımçı;

d) anbar.

**5.8.** İstehsalat obyektlərinə giriş zonası işçilərin əsas nəqliyyat və piyada hərəkəti istiqaməti tərəfdə yerləşdirməlidir.

**5.9.** Sənaye parkı və ərazi sənaye klasterinin obyektləri yerləşdirilən funksional-planlaşdırma zonaların tərkibi hər bir konkret halda, xidmət obyektlərinin mövcudluğundan, ayrı-ayrı müəssisələrin istehsal texnoloji və sanitariya-gigiyena xüsusiyyətlərindən, ümumi memarlıq-planlaşdırma həllərindən asılı olaraq müəyyən olunmalıdır.

**5.10.** Enerji təchizatı, su təchizatı və kanalizasiya, nəqliyyat, təmir təsərrüfatı, yanğından mühafizə bölməsi (olduqda), tullantı yerlərinin (qalaqları) yerləşdirilməsi və ölçüləri sənaye parklarında və ərazi sənaye klasterlərində yerləşdirilən bütün sənaye müəssisələrinin təminatı nəzərə alınmaqla layihələndirilməlidir.

**5.11.** İstehsalat obyektlərinin giriş zonalarında və sənaye parklarının və ərazi sənaye klasterlərinin bütün funksional-planlaşdırma zonalarında AzDTN 2.6-1* və AzDTN 2.7-1-ə müvafiq minik avtomobillərinin dayanacağı üçün yerlər nəzərdə tutulmalıdır.

**5.12.** İstehsalat obyektlərinin giriş məntəqələri bir-birindən 1,5 km-dən çox olmayan məsafədə yerləşdirilməlidir.

**5.13.** Giriş məntəqələrindən istehsalat zonasının əsas sexlərin sanitar-məişət yerləşgələrinin girişinə qədər məsafə 400 m-dən 800 m-ə qədər olmalıdır.

Bu məsafələri artırdıqda daxili sərnişin nəqliyyatı nəzərdə tutulmalıdır.

**5.14.** İstehsal obyektinin ərazisində iş yerlərindən sanitariya-məişət və digər xidmət yerləşgələrinə qədər məsafə TNvəQ 2.09.04-ə müvafiq qəbul edilməlidir.

**5.15.** Sanitariya-məişət yerləşgələrinə, yeməkxana və idarəetmə binalarına keçid və giriş yerlərinin qarşısında ən çoxsaylı iş rejimində 1 nəfərə 0,15 m$^2$ hesabı ilə meydança nəzərdə tutulmalıdır, həmçinin “İnfrastruktur obyektlərinin və yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin tələbatının nəzərə alınmasına, istismarda olan infrastruktur obyektlərinin və yaşayış binalarının əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına nəzarət Qaydası”nın, “Bina və qurğuların layihələndirilməsində əlillər üçün zəruri olan həyat və fəaliyyət şəraitinin yaradılması üzrə Müvəqqəti Təlimat”ın və “Məişətdə, nəqliyyatda və ictimai yerlərdə əlillər üçün münasib həyat və fəaliyyət şəraitinin yaradılması məqsədilə əlillərin reabilitasiyası üzrə texniki

vasitələrdən və memarlıq-planlaşdırma həllərindən istifadə olunması üzrə Metodiki göstərişlər”in tələbləri yerinə yetirilməlidir.

Əlilliyi olan şəxslərin əməyindən istifadə mümkünlüyü nəzərdə tutulmuş obyektlərdə istehsal, habelə inzibati-məişət və digər köməkçi binalara girişlər panduslarla təchiz olunmalıdır.

**5.16.** Genişləndirilən və yenidən qurulan obyektlərin torpaq sahələrinin, o cümlədən onların sənaye parklarında və ərazi sənaye klasterlərində yerləşməsində, planlaşdırılmasında aşağıdakılar nəzərdə tutulmalıdır:

a) sanitariya-mühafizə zonasının təşkili (zərurət olduqda);

b) yaşayış məntəqələrinin bitişik yaşayış və digər funksional zonalarının planlaşdırılması və tikililəri ilə əlaqələndirilməsi;

c) funksional zonalaşdırılmanın, ərazinin abadlaşdırılmasının və obyektin memarlıq görünüşünün təkmilləşdirilməsi;

d) ərazinin istifadəsinin effektliyinin artırılması;

e) səpələnmiş istehsalat və yardımçı obyektlərin birləşdirilməsi.

**5.17.** İstehsalın və təbii şəraitin xüsusiyyətləri əsasında istehsalat obyektlərinin bina və qurğuları aşağıdakı tələblərin mümkün qədər yerinə yetirilməsini nəzərə almaqla yerləşdirilməlidir:

a) binanın və işıq fənərlərinin boyuna oxları meridiana $45^{o}$-dən $110^{o}$-yə qədər olan hüdudlarda yönəlməlidir;

b) binanın yerləşgələrinin aerasiyası üçün istifadə olunan boşluqlu divarların və aerasiya fənərlərinin boyuna oxlarını planda, ilin yay mövsümündə hakim küləklərin istiqamətinə perpendikulyar və ya $45^{o}$-dən az olmayan bucaq altında yönəltmək lazımdır;

c) qar örtüyü 50 sm-dən və ya daşınan qarın miqdarı ildə ərazinin hər 1 metrinə 200 $m^{3}$-dən çox olan ərazilərdə müəssisənin meydançasının birbaşa havalandırılması təmin edilməlidir. Bunun üçün əsas keçidlər, böyük binaların və fənərin uzununa oxları ilin qış mövsümündə hakim küləklərin istiqamətinə nəzərən $45^{o}$-dən çox olmayan bucaq altında yerləşdirilməlidir;

d) qumun küləklərlə sovrularaq geniş miqyasda yerdəyişdiyi ərazilərdə daha uzun və hündür binaları qumun sovrularaq yerdəyişdiyi axına perpendikulyar olmaqla meydançanın küləklənən tərəfinə doğru yerləşdirmək lazımdır, həmçinin yaşıllıq zolağı (eni 20 m-dən az olmamaqla) və ya qoruyucu sipərlər nəzərdə tutulmalıdır.

**5.18.** Yarımqapalı həyətləri formalaşdıran binaların o halda tətbiq olunmasına yol verilir ki, bu zaman texnologiya və ya yenidənqurma şərtlərinə görə digər planlaşdırma həlli qəbul oluna bilməz.

Yarımqapalı həyətlərin daha uzun tərəfi hakim küləklərin istiqamətinə paralel və ya həmin istiqamətə $45^{o}$-dən çox olmayan bucaq altında yerləşdirilməlidir, bu halda həyətin açıq tərəfi hakim küləklərin istiqamətinə yönəlməlidir.

Pəncərə boşluqları vasitəsilə işıqlandırılan binaları olan yarımqapalı həyətlərin eni, həyəti formalaşdıran qarşı tərəfdəki binaların karnizinin yuxarısına qədər hündürlüklərinin cəminin yarısından, lakin 15 m-dən az olmayaraq qəbul olunmalıdır.

Həyətə zərərli istehsalat tullantıları ayrılmaları olmadıqda, həyətin eni 12 m-ə qədər azaldıla bilər.

***Qeyd:***

*1. Yarımqapalı həyət üç tərəfdən bir-birilə bitişik binalardan ibarət və planda dərinliyinin eninə nisbəti vahiddən böyük olan hesab edilir.*

*2. Həyətin planda dərinliyinin eninə nisbəti 3-dən çox olduqda, həyətdə zərərli istehsalat tullantılarının toplanma mümkünlüyündə, binanın həyətyanı sahəni əhatə edən hissəsində küləklənmə üçün eni 4 m-dən və hündürlüyü 4,5-dən az olmayan boşluq nəzərdə tutulmalıdır. Boşluğun aşağı hissəsi bitişik ərazinin planlaşdırma səviyyələrinə uyğun olmalıdır. Boşluqda, onun funksional təyinatını pozabilən darvazaların, mühafizə və digər qurğuların yerləşdirilməsinə yol verilmir.*

**5.19.** Bütün tərəflərindən qapalı həyətləri təşkil edən binaların tətbiqinə yalnız texnoloji və ya planlaşdırma əsaslandırmaları olduqda və aşağıdakı şərtlər təmin olunduqda yol verilir:

a) həyətin eni, həyəti təşkil edən binaların karnizinin yuxarısına qədər ən böyük hündürlüyündən, lakin 18 m-dən az olmamalıdır;

b) zərərli maddələrin toplanması mümkün olan hallarda binalarda eni 4 m-dən və hündürlüyü 4,5 m-dən az olmayan boşluqların qurulması ilə həyətin ikitərəfli küləklənməsi təmin olunmalıdır.

**5.20.** Qapalı və ya yarımqapalı həyətlərdə binalara əlavə tikililərin, həmçinin ayrıca dayanan bina və qurğuların yerləşdirilməsinə yol verilmir.

***Qeyd:***

*1. Müstəsna hallarda, müvafiq əsaslandırmalar olduqda göstərilən həyətlərdə ətrafa zərərli tullantılar ayırmayan istehsal xarakterli əlavə tikililərin qurulmasına, əlavə tikilinin divarın uzunluğunun 25%-dən çox hissəsini tutmaması, onun yerləşdiyi yerdə həyətin eninin həyəti təşkil edən qarşı-qarşıya dayanan binaların hündürlüklərinin cəminin yarısından az olmaması, həmçinin yanğın əleyhinə tələb olunan məsafələrin təmin olunması şərti ilə yol verilir.*

*2. Ayrıca dayanan energetik və ya havalandırma qurğularının yarımqapalı həyətdə yerləşdirilməsinə yol verilir, bu zaman bu qurğulardan binalara qədər məsafə yarımqapalı həyətlərin qurulmasına göstərilən tələblərə cavab verməlidir.*

**5.21.** Böyük dinamik yüklərin və qruntun rəqslərinə səbəb olan avadanlıqla təchiz olunan bina və qurğular, titrəməyə xüsusi həssas istehsalat bina və qurğularından ərazinin mühəndis geoloji şəraiti, bünövrənin əsasının fiziki-mexaniki xassələrini, həmçinin qrunta dinamik yüklərin və vibrasiyanın təsirini aradan qaldıran tədbirlərin hesablanması ilə təyin olunan məsafələrdə yerləşdirilməlidir.

**5.22.** Xüsusi zərərli prosesli istehsalat və sınaq stansiyaları, yanğın və partlayış təhlükəli obyektlər, həmçinin yanan və tezalışan materialların, zəhərli və partlayış təhlükəli maddələrin bazis anbarları DTN 2.02-01-in, "Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları"na, "Təhlükəli tullantıların saxlanılması Qaydası"na eləcə də "Yanğın təhlükəsizliyi

haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq texniki şərtlərə əsasən yerləşdirilməlidir.

**5.23.** Atmosferə qaz, tüstü və toz ayıran binalar, qurğular, istehsalat prosesli açıq qurğular, partlayış və yanğın təhlükəli obyektlər digər istehsalat binaları və qurğularına münasibətdə mümkün qədər hakim küləklərin əsdiyi tərəfdən yerləşdirilməməlidir.

**5.24.** Soyutma nohurları, su hovuzları, şlamdurulducular və s. elə yerləşdirilməlidir ki, qəza halında mayenin axması nəticəsində obyektin, həmçinin digər istehsalat, yaşayış və ictimai bina və qurğuların subasmasına təhlükə yaratmamalıdır.

**5.25.** Çiləyici hovuzların uzun tərəfini ilin yay mövsümündə hakim küləklərin istiqamətinə perpendikulyar yerləşdirmək lazımdır.

**5.26.** Su soyutma qurğularının, bina və qurğuların arasında məsafələr su soyutma qurğularının səmərəli işini təmin etmək mümkünlüyünü nəzərə almaqla qəbul olunmalıdır. Su soyutma qurğularından yaranan nəmliyin zərərli təsirindən yaxınlıqda olan bina və qurğuların konstruksiyalarının mühafizəsi, eləcə də yaxın ərazilərdə piyadaların və nəqliyyatın hərəkətinin təhlükəsizliyinin təmin olunması üzrə tədbirlər nəzərdə tutulmalıdır.

Su soyutma qurğuları, bina və qurğular arasında məsafələr cədvəl 5.1-də göstərilənlərdən az olmayaraq qəbul edilməlidir.

Cədvəl 5.1

| | Məsafələr, m | | | |
|---|---|---|---|---|
| | Çiləyici hovuzlara qədər | Qülləli su soyutma qurğularına qədər | Ventilyator seksiyalı su soyutma qurğularına qədər | Binanın dam örtüyündə ventilyator seksiyalı su soyutma qurğularına qədər |
| 1. Çiləyici hovuzlar | - | 30 | 30 | - |
| 2. Qülləli su soyutma qurğuları | 30 | 0,5 *D**, lakin 18-dən az olmayaraq | 18 | - |
| 3. Yerüstü ventilyator seksiyalı su soyutma qurğuları | 30 | 15 | 9-24** | - |
| 4. Binanın dam örtüyündə ventilyator seksiyalı su soyutma qurğuları | - | - | - | - |
| 5. Şaxtayadavamlı markası F25-dən az olmayan materiallardan olan divarlı binalar | 42 | 21 | 21 | 9 |
| 6. Açıq elektrik yarımstansiyalar və elektrik ötürücü xəttlər | 80 | 30 | 42 | 42 |
| 7. Açıq yerüstü anbarlar | 60 | 21 | 24 | 15 |
| 8. Hasarların yerüstü və yer səthindən yuxarı çəkilən kommunikasiyaları | 9 | 9 | 9 | 9 |
| 9. Xarici və çeşidləmə dəmir yolları oxu | 80 | 42 | 60 | 21 |
| 10. Daxili giriş dəmir yolları oxu | 30 | 12*** | 12*** | 9*** |
| 11. Ümumi istifadəli avtomobil yollarının hərəkət hissəsinin kənarı | 60 | 21 | 39 | 9 |
| 12. Giriş və zavoddaxili avtomobil yollarının hərəkət hissəsinin kənarı | 21 | 9 | 9 | 9 |

*Giriş pəncərələri səviyyəsində su soyutma qurğularının diametri.

**Seksiyanın sahəsi 20 $m^2$-ə qədər olduqda - 9 m, 20 $m^2$-dən çox 100 $m^2$-ə qədər olduqda - 15 m, 100 $m^2$-dən çox 200 $m^2$-ə qədər olduqda - 21 m, 200 $m^2$-dən çox olduqda - 24 m.

***Soyutma qurğularında yanar qoruyucu konstruksiyalar tətbiq edildikdə məsafə 21 m-ə bərabər qəbul olunur.

***Qeyd:***

*1. 1-4 bəndlərində göstərilən məsafələr birtipli su soyutma qurğuların sıralarının kənarları arasında məsafəyə bərabər qəbul edilir, bu halda çiləyici hovuzlar bir sırada yerləşdirilir.*

*Müxtəlif sahəli su soyutma qurğuları sıralarla yerləşdiyi hallarda sıralar arasında məsafə böyük sahəli soyutma qurğulardakı kimi qəbul olunur.*

*2. Birventilyatorlu su soyutma qurğularının sıraları arasındakı məsafə kommunikasiyaların yerləşmə şərtlərindən, lakin 15 m-dən az olmayaraq təmin olunmalıdır. Birventilyatorlu su soyutma qurğularından bina və qurğulara qədər məsafə qülləli su soyutma qurğuları üçün olduğu kimi qəbul olunur.*

*3. Qülləli su soyutma qurğuları üçün sıralar arasında məsafə onların sahəsi 3200 $m^2$-ə qədər olduqda verilmişdir, sahə çox olduqda məsafə müvafiq əsaslandırma üzrə qəbul olunur.*

*4. Bir sıralı su soyutma qurğuları arasında məsafə aşağıdakı kimi qəbul olunmalıdır:*

*- qülləli su soyutma qurğuları üçün - bünövrə səviyyəsində su soyutma qurğusunun diametrinin 0,4-ü, lakin 12 m-dən az olmamaqla;*

*- yerüstü və binanın dam örtüyündə ventilyator seksiyalı su soyutma qurğuları üçün - 3 m;*

*- birventilyatorlu su soyutma qurğuları üçün - hava daxil olan pəncərələrin ikiqat hündürlüyü, lakin 3 m-dən az olmamaqla.*

*5. 7-ci bənddə göstərilən məsafələr istisna olunmaqla su ilə qarşılıqlı təsirdə partlayış təhlükəli maddə yaradan natrium, kalium, kalsium, karbid və digər materiallar olan anbarlar (talvarlar) üçün sahəsi 20 $m^2$-ə qədər soyudan sahəsi üçün 40%-dən çox olmadan, soyudan sahə 20 $m^2$-dən 100 $m^2$-ə qədər olduqda 30%-dən çox olmadan, lakin bütün hallarda 6 m-dən az olmayaraq azaldılmasına yol verilir.*

*6. 2, 3, 8, 9 və 10-cu bəndlərdə göstərilən məsafələr havanın ən çox beşgünlük orta temperaturu mənfi 36$^o$-dən aşağı olan rayonlarda 25% artırılmalıdır.*

*7. Şaxtayadavamlılığa görə markası F25-dən az materiallardan divarı olan binalar üçün divarların nəmlikdən və buzlaşmadan mühafizəsi nəzərdə tutulmalıdır.*

*8. Yenidən qurulan müəssisələrdə su soyutma qurğuları və həmçinin su soyutma qurğuları ilə bina və qurğular arasında məsafələrin 25%-dən çox olmayaraq azaldılmasına yol verilir.*

*9. Su soyutma qurğuları və bu su soyutma qurğularının xidməti üçün nəzərdə tutulmuş avtomobil yolları, yerüstü və yeraltı mühəndis şəbəkələri arasında məsafələr normalaşdırılmır.*

*10. 5-8 bəndlərində göstərilən məsafələr yalnız xarici havanın müsbət temperatur mövsümlərində su soyutma qurğularının iş şəraitində 25% azaldılmasına yol verilir.*

*11. Binanın dam örtüyündə yerləşən ventilyator seksiyalı su soyutma qurğularından bu binanın xarici divarlarına qədər məsafə normalaşdırılmır.*

*Ventilyator seksiyalı su soyutma qurğularından bu binanın yüksək hissəsinin divarına qədər məsafə 5-ci qeyd və ya 8 və 10 qeydləri nəzərə alınmaqla bu cədvəlin 5-ci bəndi üzrə qəbul olunur.*

*12. Məhsuldarlığı 100 $m^3$/saat-a qədər olan su soyutma qurğularından minimal məsafə:*

*- şaxtayadavamlılıq üzrə markası F25-dən az olmayan materiallardan divarı olan bina və qurğulara qədər - 15 m;*

*- açıq transformator yarımstansiyalara qədər - 30 m;*

*- daxili dəmir yollarının oxuna, giriş və zavoddaxili avtomobil yolların hərəkət hissəsinin kənarına qədər - 6 m.*

*13. Çiləyici hovuzlar ətrafında eni 2,5 m-dən az olmayan suyun axmasını təmin edən mailli sukeçirməyən örtük nəzərdə tutulmalıdır.*

*14. Açıq duruldduculardan bina və qurğulara qədər məsafə ventilyatorlu seksiyalı yerüstü su soyutma qurğuları üçün olduğu kimi qəbul olunmalıdır.*

*15. Qapalı tipli su soyutma qurğularına qədər məsafələr normalaşdırılmır.*

*16. Su soyutma qurğularından ayrılan rütubətin zərərli təsirindən işçilərin, istehsalat proseslərinin və konstruksiyaların mühafizəsi olan bina və qurğularına qədər məsafənin su soyutma qurğularının effektiv işini təmin etməklə azaldılmasına yol verilir.*

### Yollar, girişlər və keçidlər

**5.27.** Dəmir yolları, hidravlik, konveyr nəqliyyatı və asma kanat yolları DÜİST 9238, TNvəQ 2.05.07-yə müvafiq olaraq layihələndirilməlidir.

**5.28.** Avtomobil yolları və velosiped zolaqları TNvəQ 2.05.02-yə müvafiq layihələndirilməlidir.

**5.29.** Layihənin tərkibində hazırlanan nəqliyyat sxemi, obyektlərin torpaq sahələrinin baş planları aşağıdakıları nəzərdə tutmalıdır:

a) müxtəlif nəqliyyat növləri üçün nəqliyyat vasitə və qurğularının maksimum birləşdirilməsi (avtomobil və dəmir yollarının və ya avtomobil yolları və yol ötürücülərinin);

b) digər məqsədlər üçün layihələndirilmiş qurğu və vasitələrin (su anbarlarının torpaq bəndləri, suburaxan qurğular) dəmir və avtomobil yollarının süni qurğuları və torpaq yatağı kimi istifadəsi;

c) xarici nəqliyyat sxeminin inkişaf etdirilməsinin mümkünlüyü.

**5.30.** İşçilərin məskunlaşma yerləri ilə obyektləri əlaqələndirən uzunluğu 2 km-dən çox olmayan avtomobil yolları boyu velosiped zolağı və səkilər nəzərdə tutulmalıdır.

Velosiped zolaqlarının layihələndirilməsi velosiped (moped) hərəkətinin intensivliyi 250 vah/sut-dan və boyunca velosiped zolağı layihələndirilən avtomobil yolunda avtomobillərin hərəkət intensivliyi 2000 avt/sut-dan çox olduqda nəzərdə tutulur .

**5.31.** Sənaye parklarının və ərazi sənaye klasterlərinin nəqliyyat infrastrukturunu formalaşdıran nəqliyyat əlaqələri sistemində aşağıdakılar fərqləndirilməlidir:

- yaşayış məntəqələri və digər funksional zonalar ilə nəqliyyat əlaqələri;

- sənaye parklarının və ərazi sənaye klasterlərinin daxilində yerləşən ayrıca obyektlər arasında daxili nəqliyyat əlaqələri.

**5.32.** Sənaye parkları və ərazi sənaye klasterlərinin nəqliyyat infrastrukturlarının sahələri hüdudlarında sərnişin, yükdaşıyan dəmiryolu və avtomobil nəqliyyatı yollarının kəsişmələri minimallaşdırılmalıdır.

**5.33.** Sənaye parklarının və ərazi sənaye klasterlərinin nəqliyyat infrastrukturu sahələrində dəmir yolu nəqliyyatının tətbiqi yalnız texnoloji tələblərə müvafiq DÜİST 9238 və DTN 3.03-01 nəzərə alınmaqla layihələndirilməlidir.

**5.34.** Sənaye parklarının və ərazi sənaye klasterlərinin nəqliyyat infrastrukturunun sahələrində sənaye nəqliyyatının fasiləsiz növlərinin (hidravlik, asma kanatlarının, pnevmonəqliyyatın konveyer və konteyner boru kəmərləri) daşınmanın minimal qısa məsafəsində tətbiqi həyata keçirilməlidir.

**5.35.** Torpaq sahəsi 5 ha-dan çox olan obyektlərdə giriş ikidən az olmamalıdır.

İstehsalat obyektinin torpaq sahəsinin tərəfi 1000 m-dən çox olduqda və bu tərəf küçə və ya avtomobil yolu boyu yerləşdikdə torpaq sahəsinə ikidən az olmayan giriş nəzərdə tutulmalıdır. Girişlər arasında məsafə 1500 m-dən çox olmamalıdır.

**5.36.** Bina və qurğulara onların bütün uzunluğu boyu yanğınsöndürən maşınlar üçün giriş yolu təmin olunmalıdır:

- binanın eni 18 m-ə qədər olduqda bir tərəfdən;

- binanın eni 18 m-dən çox olduqda, həmçinin həyətlər qapalı və yarımqapalı qurulduqda iki tərəfdən.

Tikinti sahəsi 10 ha-dan və ya eni 100 m-dən çox olan binalar üçün yanğınsöndürən maşınlar üçün hər tərəfdən giriş təmin edilməlidir.

İstehsalat şəraiti yolların tikintisini tələb etmədiyi hallarda, yanğınsöndürən maşınlar üçün giriş yolu gil və qumlu (tozlu) qruntlar olduqda keçid yerləri 3,5 m enliyində müxtəlif yerli materiallarla möhkəmləndirilmiş planlaşdırılmış yer səthi boyu (səth sularının təbii axınını təmin edən mailliklər yaratmaqla) təmin edilməsinə yol verilir.

Yanğınsöndürən maşınların keçidini təmin edən yolun hərəkət hissəsinin və ya planlaşdırılmış yer səthinin kənarından hündürlüyü 12 m-yə qədər olan binaların divarlarına qədər məsafə 25 m-dən, binanın hündürlüyü 12 m-dən 28 m-ə qədər olduqda 8 m-dən, binanın hündürlüyü 28 m-dən çox olduqda 10 m-dən çox olmamalıdır.

Zəruri hallarda, bina və qurğulara yanğınsöndürən maşınların geri dönməsi üçün meydançalar (meydançalarda yanğın hidrantları qurulmaqla) dalan yolların qurulması şərti ilə yolun hərəkət hissəsinin kənarından istehsalat binaların və qurğularının kənar oxuna qədər olan məsafənin 60 m-ə qədər artırılmasına yol verilir. Bu halda bina və qurğulardan həmin meydançalara qədər olan məsafə 5 m-dən az və 15 m-dən çox olmamalıdır. Dalan yolları arasındakı məsafə 100 m-dən çox olmamalıdır.

***Qeyd:***

*1. Bina və qurğuların eni kimi onların kənar him oxları arasındakı məsafə qəbul edilməlidir.*

*2. Yanğını söndürmək üçün istifadə edilə bilən su anbarlarına ölçüsü 12x12 m-dən az olmayan meydançalarla giriş yolları təşkil olunmalıdır.*

*3. Yanğın hidrantları avtomobil yolları boyunca yolun hərəkət hissəsinin kənarından 2,5 m-dən çox olmayan, lakin binanın divarlarından 5 m-dən az olmayan məsafədə yerləşdirilməlidir; texniki-iqtisadi əsaslandırma zamanı hidrantların yolun hərəkət hissəsində yerləşdirilməsinə yol verilir.*

*4. Material və konstruksiyaları, həmçinin texnoloji prosesləri yanma ehtimalını istisna edən bina və qurğulara yanğınsöndürən maşınlar üçün giriş yolları nəzərdə tutulmamalıdır.*

**5.37.** İstehsalat obyektinin torpaq sahəsində avtomobil girişlərində darvazaların eni tətbiq olunan avtomobillərin ən böyük en ölçüsünə 1,5 m əlavə edilməklə, lakin 4,5 m-dən az olmayaraq, dəmir yolu girişlərində isə 4,9 m-dən az olmayaraq qəbul olunmalıdır.

**5.38.** Obyektdaxili nəqliyyat növünün seçilməsi müxtəlif texniki-iqtisadi variantların nəticələrinin müqayisəsi əsasında vahid nəqliyyat prosesinin təşkili nəzərə alınmaqla emal olunan materialların onların anbarlanma yerlərindən istifadə yerlərinə həmin nəqliyyat vasitəsilə ötürməklə, sexlərarası nəqliyyatdan sexlərdaxili nəqliyyata daşınma nəzərə alınmamaqla həyata keçirilməlidir.

**5.39.** İstehsalat obyektlərinin ərazilərinə girişlərin eni nəqliyyat və mühəndis kommunikasiyasının və abadlaşdırma elementlərinin ən yığcam yerləşməsi şərtindən minimal qəbul edilməlidir.

Girişdə bir avtomobil yolu nəzərdə tutulmalıdır. Bir girişdə iki avtomobil yolunun nəzərdə tutulmasına aşağıdakı hallarda yol verilir:

a) bir avtomobil yolunun girişlərlə örtük sahəsi, iki avtomobil yollarının girişlərlə örtük sahəsinə bərabər və ya çox olduqda;

b) istehsalat binalarına relssiz nəqliyyat vasitəsinin girişini təmin etmək üçün müxtəlif səviyyəli yolların qurulmasını tələb edən obyektin torpaq sahəsinin ərazisi mürəkkəb relyefli olduqda.

**5.40.** Avtomobil yollarının bordür daşından və ya bərkidilmiş çiyininin kənarından istehsalat obyektinin bina və qurğularına qədər məsafələr cədvəl 5.2-də göstərilənlərdən az olmamalıdır.

Cədvəl 5.2

| Bina və qurğular | Məsafə, m |
|---|---|
| 1. Tambur və bitişik tikili daxil olmaqla binanın xarici divarının kənarı: | |
| a) binaya giriş olmadıqda və binanın uzunluğu 20 m-ə qədər olduqda | 1,5 |
| b) həmçinin, binanın uzunluğu 20 m-dən çox olduqda | 3 |
| c) ikioxlu avtomobil və avtoyükləyicilərin binaya girişi olduqda | 8 |
| d) üçoxlu avtomobillərin binaya girişləri olduqda | 12 |
| e) yalnız elektrokarların binaya girişi olduqda | 5 |
| 2. Paralel yerləşmiş dəmir yollarının oxları: | |
| - rels izi 1520 mm olduqda | 3,75 |
| - rels izi 750 mm olduqda | 3 |
| 3. İstehsat binasının sahəsinin hasarları | 1,5 |
| 4. Estakada və yolötürücülərinin dayaqlarının, tüstü borularının, dorların, sütunların, binanın çıxıntı hissələrinin (pilyastr, kontrfors, xarici pilləkən və s.) kənarlarından | 0,5 |

| | |
|---|---|
| 5. Maye metal, şlak daşınan, külçə və qəlibli arabacıqlar, doldurulma materiallarının daşınması üçün novlu və qutulu arabacıqlar üçün olan dəmir yolu oxu | 5 |
| ***Qeyd:***<br>*1. Uzun ölçülü yükləri (şalbanlar, tirlər) daşıyan yedəkçi maşınların hərəkəti üçün yollar layihələndirilərkən bu cədvəldə göstərilən məsafələr döngələrdə və kəsişmələrdə avtomobil yollarının layihələndirilməsi tələbləri nəzərə alınmaqla yükün çıxıntısının ölçüsünə müvafiq artırılmalıdır.*<br>*2. Bordür daşından, hərəkət hissənin və ya çiyninin bərkidilmiş zolağının kənarından ağacların gövdəsinə və ya kolluqlara qədər məsafə, onların növündən asılı olaraq və ağacların budanması nəzərə alnmaqla ağac və kolluqların çətirlərinin yolun hərəkət hissəsinin və ya çiyininin üzərindən sallanmaması şərti ilə təyin olunmalıdır.*<br>*3. İkizolaqlı yolda hərəkət zolağının eni 3,75 m-dən az olduqda və bordür daşı və ya yol çiyininin bərkidilmiş zolağı olmadıqda, yolun oxundan məsafə 4,25 m-dən az olmamalıdır. Avtomobilin eni 2,5-dən çox olduqda həmin məsafə müvafiq olaraq artırılmalıdır.*<br>*4. Qoşqulu avtomobillərin sexə gedişində sexin divarından yola qədər məsafə hesablama ilə müəyyən olunmalıdır.*<br>*5. Bu cədvəlin 1-ci bəndinin c) - e) sadalananlarında göstərilən məsafələrin, yenidənqurma zamanı yol hərəkətinin təhlükəsizliyi təmin olunmaqla 3 m-ə qədər azaldılmasına yol verilir.* | |

**5.41.** Tunellərin, körpülərin, yolötürücülərin, estakadaların, viadukların, qalereyaların və s. inşaat konstruksiyaları bordür daşından və ya su kənarlaşdıran qurğuların (küvetlərin, novların) xarici kənarından 0,5 m-dən az olmayan məsafədə yerləşdirilməlidir. Zərurət olduqda perspektivdə yolun hərəkət hissəsinin genişləndirilməsi nəzərə alınmalıdır.

**5.42.** Sadalanan qurğuların inşaat konstruksiyalarının aşağısının avtomobil yollarının hərəkət hissəsinin üzərindən yuxarıya hündürlüyü 5 m-dən az olmayaraq qəbul olunmalıdır. İstehsalat obyektlərinin daxili avtomobil yollarında nəqliyyat vasitələrinin növünün və daşınan yüklərin qabaritlərinin əsaslandırılması olduqda hündürlük üzrə qabaritinin 4,25 m qəbul olunmasına yol verilir.

**5.43.** İstehsalat binalarına dəmir yollarının çəkilişində relslərin başlıq səviyyələri döşəmənin səviyyəsi ilə eyni yüksəklikdə olmaqla dalanvari nəzərdə tutulmalıdır.

**5.44.** Daxili dəmir yolunun oxundan (maye çuqun, şlak və qaynar ərintiləri daşınan yollar istisna olmaqla) bina və qurğulara qədər məsafə cədvəl 5.3-də göstərilənlərdən az olmayaraq qəbul olunmalıdır.

Cədvəl 5.3

| Bina və qurğular | Məsafə, m-lə, | |
|---|---|---|
| | rels izi 1520 (1524) mm olduqda | rels izi 750 mm olduqda |
| 1. Divarın və ya binanın çıxıntı hissəsinin (pilyastrların, kontrforsların, tamburların, pilləkənlərin və s.) xarici kənarı:<br>a) binadan çıxışlar olmadıqda<br>b) binadan çıxışlar olduqda<br>c) binadan çıxışlar olduqda və binadan çıxışlarla binanın divarlarına paralel dəmir yolları arasında mühafizə baryerləri quruldaqda (uzunluğu 10 m-dən az olmayan) | <br><br>3,1<br>6<br><br><br>4,1 | <br><br>2,3<br>5<br><br><br>3,5 |
| 2. Ayrıca dayanan sütunlar, istehsalat binalarının darvaza boşluqlarının dirəkləri, həmçinin binanın çıxıntı hissələrinin (pilyastr, kontrfors, tambur, pilləkən və s.) yolboyu onların uzunluğu 1000 mm-dən çox olmadıqda; stansiya yollarında (əsas və qəbul-yolasalma stansiya yollarından başqa) yerləşən qəbuledici və yükləmə-boşaldılma qurğuları, texniki xidmət üzrə qurğular, hərəkət tərkibinin təchizatı və təmiri, həmçinin işsiz vəziyyətdə olan digər texnoloji qurğular | dəmir yollarına yaxınlaşma əndazələrinə üzrə:<br>DÜİST 9238 | DÜİST 9720 |
| 3. Həcmi 10000 $m^3$-ə qədər olan dairəvi şalban anbarları | 5 | 4,5 |
| 4. Həcmi 5000 $m^3$-ə qədər olan taxtaşalban, jonqar və taxta kəpəyi anbarları | 10 | 9,5 |
| 5. Həcmi 2000 $m^3$-ə qədər olan tezalovlanan maye anbarları | 20 | 19,5 |
| 6. Həcmi 10000 $m^3$-ə qədər olan maye yanacaq anbarları | 10 | 9,5 |
| 7. Həcmi 100000 t-a qədər olan daş kömür anbarları | 5 | 4,5 |
| 8. Həcmi 10000 t-a qədər olan frezer torf anbarları | 10 | 9,5 |
| 9. Həcmi 10000 t-a qədər olan parçalı (kəsilmiş) torf anbarları | 10 | 9,5 |

***Qeyd:***

*1. 3-9 bəndlərində göstərilən məsafələr cədvəl 5.1-nin 5-ci qeydi nəzərə alınmaqla təyin olunmalıdr.*

*2. Mühafizə tələb olunan müəssisə və ərazilərin xarici çəpərlənməsi dəmir yolu oxundan 5 m -dən az olmayan məsafədə yerləşdirilməlidir.*

*3. Həcmi 10000 $m^3$-dən çox olan anbarlarda dairəvi şalban yığımlarına dəmir yolunun yaxınlaşması meşə materialları anbarlarının layihələndirmə normalarına uyğun qəbul olunmalıdır.*

*4. Dəmir yollarının avtomobil yolları və binanın divarları arasında yerləşdirilməsinə (hansı ki, həmin binalardan avtomobil yoluna avtonəqliyyat vasitələrinin gedişi nəzərdə tutulur) yalnız texnoloji tələblər üzrə yol verilir. Bu halda binanın divarından dəmir yolunun oxuna qədər məsafə 6 m-dən az olmamalıdır.*

**5.45.** Dəmiryol keçidlərində və ona yaxınlaşmalarda en üzrə minimal yaxınlaşma əndazələri müəyyən edilərkən nəzərə alınmalıdır ki, şlaqbaumların, keçid siqnalizasiyanın işıqforlarının dayaqları, məhəccərlər, yönəldici qurğular yolun hərəkət hissəsinin kənarından 0,75 m-dən az olmayan məsafədə, qabarit darvazaların dayaqları və işıq dirəkləri isə 1,75 m-dən az olmayan məsafədə qurulmalıdır.

**5.46.** Yol, keçid və çıxışların yaxınlaşma əndazələri yolların eni və hündürlüyü üzrə minimal yaxınlaşma əndazələri ilə müəyyən olunur. En üzrə yol, keçid və çıxışların yaxınlaşma əndazələri avtomobil yollarının hər dərəcəsi üzrə eninə profilinin həndəsi elementlərinin parametrlərinə olan tələblərlə və yollarda yol hərəkətinin təşkilinin texniki vasitələrinin yerləşdirilmə məsafələri ilə müəyyən edilir.

## Relyefin planlaşdırması

**5.47.** Müəssisələrin ərazisinin tam şaquli planlaşdırması bütün ərazidə planlaşdırma işlərinin yerinə yetirilməsini nəzərdə tutur və torpaq sahəsinin tikinti əmsalı 50%-dən çox və sabit relyefli ərazilər olduqda tətbiq olunur. Digər hallarda torpaq sahəsinin müəyyən hissəsinin şaquli planlaşdırması (torpaq sahəsinin tikinti əmsalının 50%-ə qədər və ərazinin relyefinin kəskin mailliyinin 0,03-dən çox olması, qaya qruntlar, meşə və digər yaşıllıqların saxlanılması, əlverişsiz geoloji şərait) işləri yerinə yetirilməlidir.

Relyefin şaquli planlaşdırma layihəsi hazırlandıqda torpaq işlərinin ən kiçik həcmi və mənimsənən ərazinin hüdudlarında və kənarında qruntun minimal yerdəyişməsi nəzərdə tutulmalıdır.

**5.48.** Qruntun münbit layının götürülməsi, yığılması və müvəqqəti saxlanılması nəzərdə tutulmalıdır.

**5.49.** Planlaşdırılmış ərazinin səthinin mailliklərі 0,003-dən az və gil qruntlar üçün 0,05-dən, qumlu qruntlar üçün 0,03-dən, asanyuyulan qruntlar üçün (narın qum, lössvari qruntlar) 0,01-dən çox olmayaraq qəbul edilməlidir.

II növ batan qrunt şəraitində planlaşdırılan səthin minimal mailliklərі 0,005 qəbul edilməlidir.

**5.50.** İstehsalat obyektləri yamacda və ya onun ətəyində yerləşdirildikdə ərazinin yuxarı tərəfdən subasmadan mühafizəsi məqsədilə dağüstü qanovlar qurulmalıdır. Dağüstü qanovların en kəsiyi və sayı AzDTN 2.11-2 və AzDTN 2.3-4-ə müvafiq hesablama ilə təyin edilməlidir.

**5.51.** Obyektlərin ərazilərində qapalı yağış kanalizasiyası sistemi nəzərdə tutulmalıdır.

**5.52.** İstehsalat obyektlərinin ərazilərində açıq sukənarlaşdırma sisteminin tətbiqi zərurəti olduqda trapesional kəsikli küvet və arxların ən kiçik ölçüləri: dibi üzrə eni 0,3 m, dərinliyi 0,4 m qəbul olunmalıdır.

**5.53.** Tezalışan və yanar mayelərlə, maye qazlarla, zəhərli maddələrlə rezervuar parkları və ya ayrıca duran rezervuarlar, bina və qurğulara nəzərən ən aşağı səviyyədə və

TNvəQ II-106-ya müvafiq yanmayan bütöv divarlarla və ya tökmə torpaqla (yerin relyefi nəzərə alınmaqla) əhatə olunmalıdır.

Göstərilən qurğuların daha yüksək səviyyədə yerləşdirildiyi hallarda mühafizə qurğuları hüdudundan kənarda qəza nəticəsində tökülən mayelərin daxil olma mümkünlüyünü aradan qaldıran əlavə tədbirlər nəzərdə tutulmalıdır.

**5.54.** Relyefin planlaşdırmasında dayanıqlı, çürüməyən və dağılmayan istehsalat tullantılarının istifadəsinə, əgər onlar yeraltı qurğular və ağac əkililəri üçün aqressiv olmadıqda yol verilir.

**5.55.** Binanın birinci mərtəbəsinin döşəməsinin səviyyəsi, binaya bitişik sahənin planlaşdırma səviyyəsindən 15 sm-dən az olmayaraq yuxarı olmalıdır.

**5.56.** Zirzəmi döşəməsinin və ya digər dərinlikli yerləşgələrin səviyyəsi qrunt sularının səviyyəsindən 0,5 m-dən yuxarı olmalıdır. Bu yerləşgələrin döşəmələrinin səviyyəsi göstərilən qrunt sularının səviyyəsindən aşağı olduqda yerləşgənin hidroizolyasiyası və ya qrunt sularının səviyyəsinin aşağı salınması nəzərdə tutulmalıdır. Bu halda istehsalat obyektlərinin istismarı zamanı qrunt sularının səviyyəsinin qalxma mümkünlüyü nəzərdə tutulmalıdır.

Səkilər olmadıqda binalar boyunca suyun kənarlaşdırılması zərurəti yaranarsa, bina boyunca selsəkilərin yaxınlığında novlar quraşdırılmalıdır.

**5.57.** Obyektlərin ərazisinin abadlaşdırılması “Yaşayış məntəqələrinin yaşıllıqla təmin edilməsi Normaları”na, AzDTN 2.6-1*-ə, TNvəQ III-10-a və abadlaşdırma üzrə digər normativ sənədlərə uyğun olaraq yerinə yetirilməlidir.

## 6. Mühəndis kommunikasiyalarının yerləşdirilməsi

**6.1.** Obyektlər üçün, o cümlədən sənaye parklarında və sanaye klasterlərində yerləşdirilən, ərazinin mümkün kiçik sahəsindən istifadəsini və bina və qurğuların yerləşməsi ilə əlaqələndirilməsini təmin edən texniki dəhlizlərdə mühəndis kommunikasiyasıların yerləşdirilməsinin vahid sistemi layihələndirilməlidir.

**6.2.** Obyektlərin ərazilərində, o cümlədən sənaye parklarında, sənaye klasterlərində mühəndis kommunikasiyalarının yeraltı, yerüstü və yer səthindən yuxarı çəkilmə variantları nəzərdə tutulmalıdır.

Obyektlərin giriş zonalarında, o cümlədən sənaye parklarında, sənaye klasterlərində yerləşən, həmçinin nəqliyyat infrastrukturunun avtomobil yolları boyu, əsas etibarilə yeraltı mühəndis kommunikasiyalarının yerləşdirilməsi nəzərdə tutulmalıdır.

**6.3.** Müvafiq sanitariya-epidemioloji normalara, yanğın təhlükəsizlik normalarına, həmçinin istismar təhlükəsizliyi qaydalarına əməl edərək, ümumi xəndəklərdə, tunellərdə, kanallarda alçaq dayaqlar, şpallar və ya estakadalar üzərində mühəndis kommunikasiyalarının birlikdə yerləşdirilməsi nəzərdə tutulmalıdır.

İstilik daşıyıcısının və texnoloji boru kəmərlərində mühitin parametrlərindən asılı olmayaraq, təkrar istifadə üçün su təchizatı boru kəmərlərinin, istilik şəbəkələrinin və texnoloji boru kəmərli qaz kəmərlərinin birlikdə yeraltı yerləşdirilməsinə yol verilir.

**6.4.** Bina və qurğuların altında tezalışan və yanar maye və qazlar kommunikasiyalarının yerləşdirilməsinə yol verilmir.

**6.5.** Elektrik güc kabel xətlərinin yerləşdirilməsi “Elektrik qurğularının quraşdırılması Qaydası”nın tələblərinə müvafiq nəzərdə tutulmalıdır.

**6.6.** İstilik şəbəkələri yerləşdirildikdə onların istehsat, inzibati və məişət binaları ilə kəsişmələrinə AzDTN 2.12-3-ün tələbləri nəzərə alınmaqla yol verilir.

### Yeraltı kommunikasiyalar

**6.7.** Ventilyasiya şaxtaları, kanal və tunellərin girişləri və digər qurğuları avtomobil yollarının hərəkət hissəsindən kənar çəkilməli və yerləşdirilməlidir.

**6.8.** Sanitariya normalarına müvafiq olaraq ventilyasiya və işıqlanma, qazla çirklənməyə avtomatik nəzarət qurğularının qurulması şərtilə qazın təzyiqi 0,6 MPa-a qədər olan yanar qaz kəmərlərinin (təbii, neftdən ayrılan, qarışıq süni və mayeləşdirilmiş karbohidrogen) kanallarda və tunellərdə digər boru kəmərləri və rabitə kabellərilə birlikdə yerləşdirilməsinə yol verilir.

**6.9.** Kanal və tunellərdə aşağıdakıların birgə yerləşdirilməsinə yol verilmir:

- yanar qaz kəmərlərinin, kanalın və ya tunelin özünün işıqlandırılması üçün kabellər istisna olunmaqla, elektrik güc və işıq kabelləri ilə;

- maye qaz, oksigen, azot və soyutma sistemlərinin boru kəmərləri, tezalışan, uçucu kimyəvi kəskin və zəhərli maddələri nəql edən boru kəmərləri və məişət kanalizasiyası ilə istilik şəbəkələri ilə;

- tezalışan və yanar mayelərin boru kəmərlərinin elektrik güc və rabitə kabelləri, yanğın əleyhinə su kəmərləri və özaxınlı kanalizasiya boru kəmərləri ilə;

- oksigen boru kəmərlərinin yanar qaz boru kəmərləri ilə, tezalışan və yanar maye boru kəmərlərinin zəhərli maye nəql edən boru kəmərləri və elektrik güc kabelləri ilə.

***Qeyd:***

*1. Ümumi kanal və tunellərdə tezalışan və yanar maye boru kəmərlərinin təzyiqli su kəməri (yanğın əleyhinə su kəmərindən başqa) və təzyiqli kanalizasiya ilə birgə yerləşməsinə yol verilir.*

*2. Yanğın-partlayış təhlükəli və zəhərli maddələr (mayelər) nəql edən boru kəmərlərinin yerləşdirilməsi üçün nəzərdə tutulan kanal və tunellərin ən azından hər 60 m-dən bir çıxışları olmalıdır.*

**6.10.** Yeraltı mühəndis kommunikasiyaları ümumi kanalda paralel yerləşdirilməlidir, bu halda mühəndis kommunikasiyaları arasında, həmçinin kommunikasiyalardan bina və qurğuların bünövrələrinə məsafələr bu şəbəkədə kameralarının, quyuların və digər qurğuların yerləşməsindən və ölçülərindən, şəbəkənin təmiri və quraşdırılma şərtlərindən asılı olaraq minimal yol verilən ölçülərdə qəbul olunmalıdır.

Ən yaxın yeraltı mühəndis kommunikasiyalarından bina və qurğulara qədər üfüqi xətt üzrə məsafələr cədvəl 6.1-də göstərilənlərdən az olmayaraq qəbul olunmalıdır.

Qonşu yeraltı mühəndis kommunikasiyalar paralel yerləşdirildikdə onların arasındakı üfüqi xətt üzrə məsafələr cədvəl 6.2-də göstərilənlərdən az olmayaraq qəbul olunmalıdır.

Elektrik kabelləri yerləşdirildikdə “Elektrik qurğularının quraşdırılması Qaydası”nın tələbləri nəzərə alınmalıdır.

Qaz kəmərləri yerləşdirildikdə AzDTN 2.13-1*-in tələbləri nəzərə alınmalıdır.

**6.11.** 110 kV və daha yüksəkgərginlikli xəttə paralel kabel xətti çəkilərkən kabeldən ən kənar naqilə qədər üfüqi xətt üzrə olan məsafə 10 m-dən az olmamalıdır.

Obyektlərin yenidən qurulması şəraitində, kabel xətlərindən gərginliyi 1000 V-dan yuxarı olan yüksəkgərginlikli elektrik xətlərinin yeraltı hissələrinə və ayrıca dayaqlarının yerləbirləşdirmələrinə qədər məsafənin 2 m-dən az olmayaraq qəbul edilməsinə yol verilir, bu halda yüksəkgərginlikli xəttin ən kənar naqilinə qədər üfüqi xətt üzrə olan məsafə normalaşdırılmır.

**6.12.** Mühəndis kommunikasiyalar kəsişdikdə şaquli xətt üzrə məsafə aşağıdakılardan az olmamalıdır:

a) boru kəmərləri və ya elektrik kabelləri, rabitə kabelləri və dəmir yolları (kanalın və ya tunelin örtüyünün üst səviyyəsindən rels oturacağına qədər hesablanan) və ya avtomobil yolları arasında (yol örtüyünün üst səviyyəsindən borunun (futlyarın) üst səviyyəsinə qədər hesablanan) məsafə - şəbəkəni möhkəmliyə hesablama yolu ilə, lakin 0,6 m-dən az olmayaraq;

b) kanal və ya tunellərdə yerləşən boru kəmərləri və elektrik kabelləri və dəmir yolları arasındakı şaquli xətt üzrə məsafə, kanalın örtüyünün üst səviyyəsindən dəmir yolunun relsinin oturacağına qədər 1 m, küvetin və ya digər suaxıdan qurğuların dibinə və ya dəmir yolunun torpaq yatağının tökməsinin əsasına qədər 0,5 m qəbul olunur;

c) boru kəmərləri ilə gərginliyi 35 kV-a qədər güc kabelləri və rabitə kabelləri arasında məsafə - 0,5 m;

d) 110-220 kV gərginlikli güc kabelləri ilə boru kəmərləri arasında - 1 m;

e) “Elektrik qurğularının quraşdırılması Qaydası”nın tələbləri nəzərə alınmaqla müəssisənin yenidən qurulmasında bütün növ gərginlikli kabelləri və boru kəmərləri arasında məsafənin 0,25 m-ə qədər azaldılmasına yol verilir;

f) müxtəlif təyinatlı boru kəmərləri (su kəmərləri ilə kəsişən kanalizasiya və zəhərli və pis qoxulu mayeləri nəql edən boru kəmərləri istisna olmaqla) arasında - 0,2 m;

g) içməli suyu nəql edən boru kəmərləri kanalizasiya və ya zəhərli və pis qoxulu mayeləri nəql edən boru kəmərlərindən 0,4 m yuxarı yerləşdirilməlidir;

h) içməli suyu nəql edən futlyarda yerləşən polad boru kəmərlərinin kanalizasiyadan aşağı yerləşməsinə yol verilir, bu halda kanalizasiya borularının divarından futlyar kəsiyinə qədər məsafə gil qruntlarda hər iki tərəfindən 5 m-dən, irisüxurlu və qumlu qruntlarda 10 m-dən az olmamalı və kanalizasiya boruları çuqundan nəzərdə tutulmalıdır;

i) diametri 150 mm-ə qədər olan təsərrüfat-içməli boru su kəmərlərinin girişlərinin futlyarsız kanalizasiya kəmərlərinin altından (kəsişən boruların divarları arasında məsafə 0,5 m olduqda) nəzərdə tutulmasına yol verilir;

j) açıq sistemli istilik təchizatı və ya isti su təchizatı boru kəmərinin kanalsız çəkilişində bu boru kəmərlərindən aşağıda və yuxarıda yerləşən kanalizasiya boru kəmərlərinə qədər məsafə 0,4 m qəbul olunmalıdır.

**6.13.** Qaz kəmərləri müxtəlif təyinatlı kanal və ya tunellərlə kəsişdikdə kanal və ya tunellərin xarici divarlarından hər iki tərəfə 2 m məsafədə çıxan futlyarlarda yerləşdirilməlidir. Qaz kəmərləri kanal və tunellərin üzərindən və ya altından keçirilməlidir. Polad örtük boruya

(futlyara) salınmış təzyiqi 0,6 MPa-a qədər olan qaz kəmərlərinin qaz sızmasını aşkar edən cihaz quraşdırılmış kanal və ya tunellərin daxilindən keçirilməsinə də yol verilir.

Cədvəl 6.1

| Mühəndis kommunikasiyaları | Yeraltı kommunikasiyalardan üfüqi xətt üzrə məsafələr, m | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | bina və qurğuların bünövrələrinə qədər | hasar bünövrələrinə, qalereya dayaqlarına, boru kəmərləri estakadalarına, kontakt şəbəkə və rabitə xətlərinə qədər | rels izi 1520 mm dəmir yolunun oxuna qədər, lakin tranşeyin dərinliyindən az olmamaqla tökmə və qazmaların dibinə qədər | tramvay yolunun oxuna qədər | avtomobil yolları | | elektrik ötürücü hava xəttinin dayaqlarının bünövrəsinədək | | |
| | | | | | bordür daşına, gediş hissənin kənarına, çiyinin bərkidilmiş zolağına qədər | küvetin xarici qaşına və ya tökmənin oturacağına qədər | 1 kV-a qədər və xarici işıqlanmada | 1 kV-dan 35-kV-a qədər | 35 kV-dan yuxarı |
| 1. Su kəməri və təzyiqli kanalizasiya | 5 | 3 | 4 | 2,75 | 2 | 1 | 1 | 2 | 3 |
| 2. Özüaxan kanalizasiya və novlar | 3 | 1,5 | 4 | 2,75 | 1,5 | 1 | 1 | 2 | 3 |
| 3. Drenajlar | 3 | 1 | 4 | 2,75 | 1,5 | 1 | 1 | 2 | 3 |
| 4. Yanar qazları nəql edən qaz kəmərləri: | | | | | | | | | |
| a) 0,005 MPa-a qədər aşağı təzyiqli | 2 | 1 | 3,75 | 2,75 | 1,5 | 1 | 1 | 5 | 10 |
| b) 0,005-dən yuxarı 0,3 MPa-a qədər orta təzyiqli | 4 | 1 | 4,75 | 2,75 | 1,5 | 1 | 1 | 5 | 10 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| c) 0,3-dən yuxarı 0,6 MPa-a qədər yüksək təzyiqli<br>d) 0,6-dan 1,2 MPa-a qədər yüksək təzyiqli | 7<br>10 | 1<br>1 | 7,75<br>10,75 | 3,75<br>3,75 | 2,5<br>2,5 | 1<br>1 | 1<br>1 | 5<br>5 | 10<br>10 |
| 5. İstilik kəmərləri (kanalın, tunelin xarici divarından və ya kanalsız çəkilişin qabığından) | 2<br>(1-ci qeydə bax) | 1,5 | 4 | 2,75 | 1,5 | 1 | 1 | 2 | 3 |
| 6. Bütün növ gərginlikli güc kabelləri və rabitə kabelləri | 0,6 | 0,5 | 3,25 | 2,75 | 1,5<br>1,5 | 1<br>1 | 0,5<br>0,5* | 5<br>5* | 10<br>10* |
| 7. Kanallar, tunellər | 2 | 1,5 | 4 | 2,75 | 1,5 | 1 | 1 | 2 | 3 |

**Rabitə kanallarından məsafə “Telekommunikasiya şəbəkələrini, vasitə və qurğularını mühafizə Qaydaları”na uyğun qəbul olunmalıdır.*

***Qeyd:***

*1. Kanalsız çəkiləndə istilik kəmərlərindən bina və qurğulara qədər məsafələr su kəmərlərində olduğu kimi qəbul olunur.*

*2. Yanğınəleyhinə su təchizatı, yanar və toksiki qazları nəql edən qaz kəmərləri istisna olmaqla, yeraltı mühəndis kommunikasiyalarının boru kəmərlərinin, qalereyaların, kontakt şəbəkələrin dayaq və estakadalarının bünövrələrinin hüdudlarında çəkilməsinə yol verilir, o şərtlə ki, bünövrələrin çökməsi halında kommunikasiyaların zədələnməsi, həmçinin kommunikasiyaların qəzası halında bünövrələrin zədələnməsi mümkün olmasın.*

Cədvəl 6.2

| Mühəndis kommunikasiyaları | Kommunikasiyaları aralarında üfüqi xətt üzrə məsafələr, m-lə | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | su kəmərləri | Kanalizasiya | drenaj və ya novlar | yanar qazları nəql edən qaz kəmərlərinə | | | 0,6-dan 1,2 MPa-a qədər yüksək təzyiqli yanar qaz kəməri | bütün növ gərginlikli güc kabelləri | rabitə kabelləri | istilik kəmərləri | | kanal, tunellər |
| | | | | 0,005 MPa-a qədər aşağı təzyiqli | 0,005-dən 0,3 MPa-a qədər orta təzyiqli | 0,3-dən 0,6 MPa-a qədər yüksək təzyiqli | | | | kanalın, tunelin xarici divarı | kanalsız çəkilişin qabığı | |
| 1. Su kəməri | 1,5 | (1-ci qeydə bax) | 1,5 | 1 | 1 | 1,5 | 2 | 0,5* | 0,5 | 1,5 | 1,5 | 1,5 |
| 2. Kanalizasiya | (1-ci qeydə bax) | 0,4 | 0,4 | 1 | 1,5 | 2 | 5 | 0,5* | 0,5 | 1 | 1 | 1 |
| 3. Drenaj və novlar | 1,5 | 0,4 | 0,4 | 1 | 1,5 | 2 | 5 | 0,5* | 0,5 | 1 | 1 | 1 |
| 4. Yanar qazları nəql edən qaz kəmərləri: | | | | | | | | | | | | |
| a) 0,005 MPa-a qədər aşağı təzyiqli | 1 | 1 | 1 | | (2-ci qeydə bax) - | | - | 1 | 1 | 2 | 1 | 2 |
| b) 0,005-dən 0,3 MPa -a qədər orta | 1 | 1,5 | 1,5 | | - | | - | 1 | 1 | 2 | 1 | 2 |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| təzyiqli | | | | | | | | | | | | |
| c) 0,3-dən 0,6 MPa-a qədər yüksək təzyiqli | 1,5 | 2 | 2 | - | | | - | 1 | 1 | 2 | 1,5 | 2 |
| d) 0,6-dan 1,2 MPa-a qədər yüksək təzyiqli | 2 | 5 | 5 | | | | - | 2 | 1 | 4 | 2 | 4 |
| 5. Bütün növ gərginlikli güc kabelləri | 0,5* | 0,5* | 0,5* | 1 | 1 | 1 | 2 | 0,1-0,5* | 0,5 | 2 | 2 | 2 |
| 6. Rabitə kabelləri | 0,5 | 0,5 | 0,5 | 1 | 1 | 1 | 1 | 0,5 | - | 1 | 1 | 1 |
| 7. İstilik kəmərləri: | | | | | | | | | | | | |
| a) kanalın, tunelin xarici divarı | 1,5 | 1 | 1 | 2 | 2 | 2 | 4 | 2 | 1 | - | - | 2 |
| b) kanalsız çəkilişin qabığı | 1,5 | 1 | 1 | 1 | 1 | 1,5 | 2 | 2 | 1 | - | - | 2 |
| 8. Kanallar, tunellər | 1,5 | 1 | 1 | 2 | 2 | 2 | 4 | 2 | 1 | 2 | 2 | - |

**Məsafələr “Elektrik qurğularının quraşdırılması Qaydası”nın tələblərinə uyğun qəbul olunmalıdır.*

***Qeyd:***

*1. Kanalizasiyadan təsərrüfat-içməli su kəmərlərinə qədər məsafə gil qruntlarında çəkilən dəmir-beton və asbosement borulardan olan su kəmərlərinə qədər 5 m, iriqırıntılı və qum qruntlarda - 10 m, diametri 200 mm-ə qədər çuqun borulardan olan su kəmərinə qədər 1,5 m, diametri 200 mm-dən çox olduqda - 3 m, plastik borulardan olan su kəmərinə qədər 1,5 m qəbul olunmalıdır. Kanalizasiya boru kəmərləri ilə istehsalat su kəmərləri arasında məsafə boruların diametri və materialından, həmçinin qruntların nomenklaturası və xarakteristikasından asılı olmayaraq 1,5 m-dən az olmamalıdır.*

*2. Bir xəndəkdə iki və daha çox yanar qazları nəql edən qaz kəmərləri birlikdə yerləşdirildikdə onlar arasında üfüqi xətt üzrə məsafə boruların diametri 300 mm-ə qədər olduqda 0,4 m, 300 mm-dən çox olduqda 0,5 m qəbul edilməlidir.*

*3. Cədvəldə göstərilən məsafələr polad qaz kəmərləri üçün verilmişdir. Metal olmayan borulardan yeraltı qaz kəmərlərinin yerləşdirilməsi AzDTN 2.13-1-ə müvafiq nəzərdə tutulmalıdır.*

**6.14.** Boru kəmərlərinin dəmir yolu və tramvay xətləri ilə, həmçinin avtomobil yolları ilə kəsişmələri 90° bucaq altında nəzərdə tutulmalıdır. Müəyyən hallarda əsaslandırılmaqla kəsişmə bucağının 45°-yə qədər azaldılmasına yol verilir.

İstilik kəmərlərindən yoldəyişən tiyənin ucuna, çarpazın quyruqcuğuna və sorucu kabellərin relslərlə birləşmə yerlərinə qədər məsafələr - tramvay xətləri üçün 3 m-dən, dəmir yolları üçün 10 m-dən az olmayaraq qəbul olunmalıdır. Qaz kəmərləri üçün müvafiq məsafələr AzDTN 2.13-1-ə əsasən qəbul olunmalıdır.

**6.15.** Birbaşa torpaq altında çəkilmiş kabel xətlərinin relsli elektrik nəqliyyat yolları ilə kəsişməsi yolun oxuna nəzərən 75-90° bucaq altında nəzərdə tutulmalıdır. Kəsişmə yerləri yoldəyişən tiyənin ucundan, çarpazın quyruqcuğundan və sorucu kabellərin relslərlə birləşmə yerlərindən dəmir yolları üçün 10 m-dən və tramvay yolları üçün 3 m-dən az olmayan məsafədə aralı olmalıdır.

Yeraltı kabel xətlərinin hava kabellərinə keçidi hallarında tökmənin oturacağından və ya dəmir və avtomobil yollarının torpaq yatağının kənarından 3,5 m-dən az olmayan məsafədə səthə çıxmalıdır.

### Yerüstü kommunikasiyalar

**6.16.** Yerüstü yerləşmədə kommunikasiyanın mexaniki zədələnmələrdən və əlverişsiz atmosfer təsirindən mühafizəsi nəzərdə tutulmalıdır.

Yerüstü kommunikasiyalar meydançanın (ərazinin) planlaşdırma səviyyəsindən aşağıda, açıq novlarda qoyulmuş şpallarda yerləşdirilməlidir.

Yerüstü yerləşmənin digər növlərinə (ərazinin səthində yerləşdirilən kanallarda və tunellərdə və ya qismən yeraltı kanal və tunellərdə, açıq xəndəklərdə çəkilməsinə və s.) yol verilir.

**6.17.** Yanar qazları, toksiki maddələri, turşu və qələviləri nəql edən boru kəmərlərinin, həmçinin məişət kanalizasiya boru kəmərlərinin açıq xəndəklərdə və novlarda yerləşməsinə yol verilmir.

**6.18.** İstismar müddətində dövrü əlçatanlıq tələb edən yeraltı kommunikasiyalar yeləşdirilən xəndək və kanallar üçün ayrılmış zolaqların hüdudlarında yerüstü kommunikasiyaların yerləşdirilməsinə yol verilmir.

### Yer səthindən yuxarı çəkilən kommunikasiyalar

**6.19.** Yer səthindən yuxarı çəkilən kommunikasiyalar dayaqlarda, estakadalarda, qalereyalarda və ya bina və qurğuların divarlarında yerləşdirilməlidir.

**6.20.** Kabel estakada və qalereyalarının elektrik hava xətləri, zavoddaxili dəmir və avtomobil yolları, kanat yolları, rabitə və radio hava xətləri və boru kəmərləri ilə kəsişməsi 30°-dən az olmayan bucaq altında yerinə yetirilməlidir.

**6.21.** Yer səthindən yuxarı çəkilən kommunikasiyaların yerləşdirilməsinə aşağıdakı hallarda yol verilmir:

a) tezalışan və yanar mayeləri və qazları nəql edən tranzit xarici boru kəmərlərinin yanar materiallardan olan estakadalar, ayrıca yerləşən sütun və dayaqlar, həmçinin binaların

(C, D və E kateqoriyalı istehsalatlı, yanğına davamlılıq dərəcəsi I, II və IIIa olan binalar istisna olmaqla) divarları və dam örtükləri üzrə;

b) məhsulların qarışması partlayışa və ya yanğına səbəb olması mümkün olan hallarda yanar maye və qazlı məhsulları nəql etdirən boru kəmərlərinin qalereyalarında;

c) tezalışan və yanar maye və qaz boru kəmərlərinin yanar örtük və divarları, həmçinin A və B kateqoriyalı partlayış-yanğın təhlükəli binaların örtük və divarları üzrə;

d) yanar qazları nəql edən qaz boru kəmərlərinin tezalışan və yanar maye və material anbarlarının ərazilərində.

***Qeyd.*** *Boru kəmərindən nəql olunan maye və qazdan istifadə və istehsal etməyən bina və texnoloji qurğulara münasibətdə qeyd olunan boru kəməri tranzit boru kəməri hesab olunur.*

**6.22.** Ayrıca dayaqlarda, estakadalarda və s. çəkilən, tezalışan və yanar mayelər üçün yer səthindən yuxarı çəkilən boru kəmərləri binanın boşluqlu divarından 3 m-dən az olmayan məsafədə yerləşdirilməlidir, boşluqsuz divarlardan bu məsafə 0,5 m-ə qədər azaldıla bilər.

Yer səthindən yuxarı çəkilən qaz kəmərləri AzDTN 2.13-1-in tələbləri nəzərə alınmaqla yerləşdirilməlidir.

**6.23.** Təzyiqli maye və qaz boru kəmərləri, həmçinin güc kabelləri və rabitə xətləri aşağıdakı hallarda alçaq dayaqlarda yerləşdirilməlidir:

a) bu məqsədlər üçün xüsusi ayrılmış texniki zolaqlarda yerləşdikdə;

b) maye məhsul və maye qaz anbarlarının ərazilərində yerləşdikdə.

**6.24.** Nəqliyyat vasitələrinin və insanların keçidi nəzərdə tutulmuş ərazilərdən kənarda, sərbəst ərazidə alçaq dayaqlar üzərində çəkilən boruların yer səthindən onların altına (və ya onların izolyasiya səthinə) qədər hündürlüyü aşağıdakılardan az olmayaraq qəbul olunmalıdır:

- boru qrupunun eni 1,5 m-dən az olduqda - 0,35 m;

- boru qrupunun eni 1,5 m və daha çox olduqda - 0,5 m.

Diametri 300 mm və az olan boru kəmərlərinin alçaq dayaqlarda yerləşdirilməsi şaqul üzrə iki və daha çox sırada, şəbəkə trasının enini maksimal azaldılmaqla nəzərdə tutulmalıdır.

**6.25.** Yer səthindən yuxarı hündür dayaqlarda çəkilən boruların alt və ya izolyasiya səthinə qədər hündürlük aşağıdakı kimi qəbul olunmalıdır:

a) insanların keçdiyi, lakin nəqliyyatın gedişi olmayan ərazi hissələrində - 2,2 m;

b) avtomobil yolları (hərəkət hissəsinin örtüyünün üst səviyyəsindən) ilə kəsişmə yerlərində - 5 m;

c) daxili dəmir yollarının və ümumi şəbəkə yolları ilə kəsişmə yerlərində DÜİST 9238-ə müvafiq;

d) tramvay yollarının kəsişdiyi yerlərdə, relsin başlığından - 7,1 m;

e) trolleybus kontakt xətti ilə kəsişmə yerlərində (yolun hərəkət hissəsinin örtüyünün üst səviyyəsindən) - 7,3 m;

f) tezalışan, yanar maye və qaz nəql edən boru kəmərləri ilə əridilmiş çuqun və ya qaynar şlakın daşınması üçün daxili dəmir yollarının (rels başlığına qədər) kəsişmə yerlərində - 10 m; boru kəmərlərinin istilik mühafizəsi qurulduqda - 6 m.

## 7. Yanğın təhlükəsizlik tələbləri

**7.1.** Obyektlərin torpaq sahələrinin, o cümlədən sənaye parklarında və ərazi sənaye klasterlərində yerləşdirilən obyektlərin torpaq sahələrinin planlaşdırılması AzDTN 2.11-1 və AzDTN 2.11-2, "Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl Qaydalar"ının və "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununun və DTN 2.02-01-in tələblərinə müvafiq olmalıdır.

**7.2.** DTN 3.02-01 və texnoloji layihələndirmə normalarına əsasən istehsalat bina və qurğuları cədvəl 7.1-ə uyğun olaraq partlayış-yanğın və yanğın təhlükəliliyi üzrə kateqoriyalara bölünür.

**7.3.** Obyektlərin ərazisində minimum zəruri sayda binalar nəzərdə tutulmalıdır. İstehsal, yardımçı və anbar yerləşgələri bir və ya bir neçə iri binalarda birləşdirilməlidir.

Ayrıca bina və qurğuları bloklaşdırıldıqda TNvəQ 2.09.04 və DTN 3.02-01-in tələbləri rəhbər götürülməlidir.

Cədvəl 7.1

| Yerləşgənin kateqoriyası | Yerləşgədə yerləşən (havada dövr edən) maddələrin və materialların xüsusiyyətləri |
|---|---|
| A<br>Yüksək partlayış-yanğın təhlükəli | Yanar qazlar, partlayış təhlükəli buxar-qaz hava qarışıqları yarada biləcək miqdarda olan və alışma temperaturu 28°C-dən çox olmayan tezalışan mayelər (alovlanmaları zamanı yerləşgədə partlayışın hesablama təzyiqi 5 kPa-dan artıq olan), həmçinin yerləşgədə hesablama təzyiqi 5 kPa-dan artıq gücdə partlayış yaradacaq miqdarda olan və su, havadakı oksigen və ya bir-biri ilə təmasda olduqda partlaya və yana bilən maddələr və materiallar |
| B<br>partlayış-yanğın təhlükəli | Alışdıqları zaman yerləşgədə hesablama təzyiqi 5 kPa-dan artıq gücdə partlayış yaradacaq miqdarda partlayış təhlükəli toz-hava və ya buxar-hava qarışıqları əmələ gətirə bilən yanar tozlar və ya liflər, alışma temperaturu 28°C-dən çox olan tezalışan mayelər və yanar mayelər |
| C1 ÷ C4<br>yanğın təhlükəli | Yanar və çətin yanan mayelər, yanar və çətin yanan bərk maddələr və materiallar (toz və liflər daxil olmaqla), həmçinin su, havadakı oksigen və ya bir-biri ilə təmasda olduqda yalnız yana bilən (partlamayan) maddələr və materiallar (bir şərtlə ki, onların yerləşdiyi və ya havasında dövr etdiyi yerləşgələr A və ya B kateqoriyasına aid deyil) |
| D<br>orta yanğın təhlükəli | Emalı istilik şüalanması, qığılcım və alov yaranması (ayrılması) ilə müşayiət olunan qaynar, közərmiş və ya ərimiş vəziyyətdə olan yanmayan maddələr və materiallar, həmçinin yanacaq kimi yandırılan və ya utilizasiya olunan yanar qazlar, mayelər və bərk maddələr |
| E | Yanmayan soyuq halda olan maddələr və materiallar |

| | |
|---|---|
| aşağı yanğın təhlükəli | |

**7.4.** Yanğın-partlayış, yanğın təhlükəli və inzibati-məişət yerləşgələrinin birləşdirilməsi “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununun və DTN 2.02-01-in tələbləri nəzərə alınmaqla aparılmalıdır.

**7.5.** Güclü təsirli zəhərli maddələr saxlanılan anbarlardan sənaye müəssisələrinin, kənd təsərrüfatı müəssisələrinin, istixana kombinat və təsərrüfat, quşçuluq fabriki, süd zavodlarının və digər yeyinti sənaye müəssisələrinin istehsalat binalarına qədər minimal yol verilən məsafələr riskin təhlilinə müvafiq TNvəQ 2.01.28-in və “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununun, “Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları”nın tələblərilə müəyyən olunmalıdır.

**7.6.** Təhlükəli istehsalat obyektləri “Atmosfer havasının mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununun tələbləri nəzərə alınmaqla yerləşdirilməlidir.

**7.7.** Sənaye park və klasterləri obyektlərinin kompleks təhlükəsizlik sistemində nəzərə alınmalıdır:

- təhlükəsizliklərinə təsir edən texnoloji xüsusiyyətlərin nəzərə alınması ilə yerləşdirilən istehsalat və digər obyektlərin funksional təyinatı;

- sənaye park və klasterlərinin ərazilərində təhlükəli təbii proseslərin, hadisələrin və texnogen təsirlərin mümkün səviyyəsi;

- təhlükəli istehsalat obyektlərinə aid olması;

- yanğın və partlayış-yanğın təhlükəliliyi.

**7.8.** Sənaye park və klasterlərinin sabit fəaliyyətinin təmin olunması üçün kompleks təhlükəsizlik sisteminə daxil edilməlidir: iqtisadi, texnogen və ekoloji, yanğın təhlükəsizlikləri.

**7.9.** Kompleks təhlükəsizlik sistemində aşağıdakıların tətbiqi nəzərdə tutulmalıdır:

- texniki müşahidə vasitələri, nəzarət, identifikasiya (mühafizə-yanğın sistemləri, video-radio avadanlığı, partlayıcı qurğunun aşkarlanması vasitələri, süni maneələr);

- yeni təhlükəsizlik sistemlərinin tətbiq olunması üçün intellektual vasitələr.

**7.10.** Kompleks təhlükəsizliyin infrastrukturunun idarə olunmasını, baza məlumatları tətbiq olunmaqla vahid dispetçer mərkəzindən idarə olunması nəzərdə tutulmalıdır:

- bina və qurğuların avtromatlaşdırılması və dispetçerləşdirilməsinin lokal sistemləri;

- bina və qurğuların lokal təhlükəsizlik sistemi;

- istehsat proseslərinə nəzarət edən qəza sistemləri;

- ətraf mühitin monitorinq sistemi;

- geoməlumat sistemləri;

- telefon dispetçer mərkəzləri;

- lokal və qlobal rabitə və televiziya yayım vasitələri;

- məlumat, hesablaşma, mühasibat və analitik proqram məhsulları.

**7.11.** Vahid dispetçer mərkəzinin işi sənaye obyektlərinin, onların qruplarının və ona bitişik ərazilərin fəaliyyətinə təsir edən hadisələrə operativ və adekvat reaksiyanı təmin etməlidir. Fövqəladə hallar zamanı vahid dispetçer mərkəzinin avadanlığının köməyi ilə aşağıdakı funksiyalar yerinə yetirilməlidir:

- qəzalı obyekt sistemlərinin işinə nəzarət;

- lazım olan yerdə vəsaitləri cəmləşdirmək;

- fövqəladə halların aradan qaldırılmasına cəlb olunan obyekt və şəhər xidmətlərinin operativ qarşılıqlı fəaliyyətini təşkil etmək;

- xəbərdarlıq və təxliyyə sistemlərini idarə etmək.

**7.12.** İstismar prosesində qəza baş vermə xəbərdarlıqlarını, lokallaşdırılmasını və nəticələrinin aradan qaldırılmasını təmin etmək məqsədi ilə sənaye park və klasterlərinin tərkibində olan təhlükəli istehsalat obyektlərinin təhlükəsiz istismarı təmin edilməlidir.

**7.13.** Yanğın mühafizəsi yanğının söndürülməsinin yerinə yetirilməsini və təşkilini "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərini nəzərə alaraq təmin etməlidir.

**7.14.** Odadavamlılıq dərəcəsi, konstruktiv yanğın təhlükəliliyi sinfi və partlayış-yanğın və yanğın təhlükəliliyi kateqoriyalarından asılı olaraq, istehsalat obyektlərinin ərazisindəki bina və qurğular arasında məsafələr cədvəl 7.2-də qeyd olunanlardan az olmamalıdır.

Cədvəl 7.2

| Odadavamlılıq dərəcələri və konstruktiv yanğın təhlükəliliyi sinifləri | Bina və qurğular arasında məsafələr, m | | |
|---|---|---|---|
| | Odadavamlılıq dərəcəsi I və II. Odadavamlılıq dərəcəsi III və IV, konstruktiv yanğın təhlükəliliyi sinfi C0 | Odadavamlılıq dərəcəsi III, konstruktiv yanğın təhlükəliliyi sinfi C1 | Odadavamlılıq dərəcəsi III, konstruktiv yanğın təhlükəliliyi sinifləri C2 və C3. Odadavamlılıq dərəcəsi IV, konstruktiv yanğın təhlükəliliyi sinfi C1, C2 və C3. Odadavamlılıq dərəcəsi V |
| Odadavamlılıq dərəcələri I və II. Odadavamlılıq dərəcələri III və IV, konstruktiv yanğın təhlükəliliyi sinfi C0 | D və E kateqoriyalı binalar üçün normalaşdırılmır; A, B və C kateqoriyalı binalar üçün - 9 | 9 | 12 |

| | | | |
|---|---|---|---|
| Odadavamlılıq dərəcəsi III, konstruktiv yanğın təhlükəliliyi sinfi C1 | 9 | 12 | 15 |
| Odadavamlılıq dərəcəsi III, konstruktiv yanğın təhlükəliliyi sinifləri C2 və C3.<br>Odadavamlılıq dərəcəsi IV, konstruktiv yanğın təhlükəliliyi sinifləri<br>C1, C2 və C3.<br>Odadavamlılıq dərəcəsi V. | 12 | 15 | 18 |

**Əlavə 1**

## Torpaq sahələrinin tikinti əmsalının hesablama qaydası

İstehsalat obyektlərinin torpaq sahəsinin tikinti əmsalı (%), tikinti sahəsinin dəmir yolu döngələrinin, rels izlərinin tutduğu sahə də daxil olmaqla hasarda obyektin ümumi sahəsinə (və ya hasar olmadıqda onun şərti sərhədlərində) nisbəti kimi müəyyən olunur.

Tikinti sahəsi talvarlar, açıq texnoloji, sanitar-texniki, enerji və digər qurğular, estakada və qalereyalar, yükləmə-boşaltma qurğuları, yeraltı qurğular (üzərində bina və qurğuların yerləşdirilməsi mümkün olmayan rezervuarlar, yeraltı anbarlar, sığınacaqlar, tunellər), həmçinin avtomobillərin, maşın, mexanizmlərin açıq dayanacaqları və müxtəlif təyinatlı açıq anbarlar (o şərtlə ki, dayanacaq və anbarların ölçüləri və avadanlıqları müəssisələrin texnoloji layihələndirilmə normaları üzrə qəbul edilir) daxil olmaqla bütün növ bina və qurğuların altındakı torpaq sahələrinin cəmi kimi müəyyən edilir.

Obyektin ərazisində, sifarişçinin layihə tapşırığı ilə bina və qurğuların (bina və qurğuların müəyyən edilmiş qabaritləri hüdudlarında) yerləşdirilməsi üçün nəzərdə tutulan ehtiyat sahələr tikinti sahəsinə daxil edilməlidir.

Tikinti sahəsinə bina və qurğuların ətrafındakı selsəkilərin, səkilərin, avtomobil və dəmir yollarının, dəmir yol stansiyalarının, müvəqqəti bina və qurğuların, açıq idman meydançalarının, istirahət üçün meydançaların, yaşıllıqların (ağacların, kolların, güllük və otluqların), işçilərə mənsub avtonəqliyyat vasitələrinin açıq dayanacaqlarının, açıq su kənarlaşdırıcı və digər qanovların, istinad divarlarının, yeraltı bina və qurğuların, hansıların ki, üstündə bina və qurğuların yerləşdirilməsi mümkündür, tutduğu sahələr daxil edilmir.

Bina və qurğuların tutduğu sahələr onların xarici divarlarının xarici konturu üzrə yerin planlaşdırma səviyyəsində hesablanır.

Qalereya və estakadaların tutduğu sahələr hesablanarkən tikinti sahəsinə onların o sahələrinin üfüqi müstəviyə proyeksiyaları daxil edilir ki, həmin sahələrin altında qabaritlər üzrə digər bina və qurğular yerləşdirmək mümkün olmasın, qalan sahələrdə qalereya və estakadaların yalnız bünövrə dayaqlarının yerin planlaşdırma səviyyəsində tutduğu sahələr daxil edilir.

**Mündəricat**


| | | səh. |
|---|---|---|
| 1. | **Tətbiq sahəsi** ........................................................................................... | 1 |
| 2. | **Normativ istinadlar** ..................................................................................... | 1 |
| 3. | **Əsas anlayışlar** ........................................................................................ | 4 |
| 4. | **Ümumi müddəalar** ...................................................................................... | 4 |
| 5. | **Obyektlərin torpaq sahəsinin planlaşdırılması**................................................ | 8 |
| | *Planlaşdırma, bina və qurğuların yerləşdirilməsi* ............................................... | 8 |
| | *Yollar, girişlər və keçidlər* ........................................................................... | 16 |
| | *Relyefin planlaşdırması* ............................................................................. | 21 |
| 6. | **Mühəndis kommunikasiyalarının yerləşdirilməsi** ............................................ | 22 |
| | *Yeraltı kommunikasiyalar* ........................................................................... | 23 |
| | *Yerüstü kommunikasiyalar* .......................................................................... | 31 |
| | *Yer səthindən yuxarı çəkilən kommunikasiyalar* ............................................... | 31 |
| 7. | **Yanğın təhlükəsizlik tələbləri** ................................................................... | 33 |
| **Əlavə 1** | ........................................................................................................ | 37 |